9 noyabr Azərbaycanın Dövlət Bayrağı günüdür!


# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

N44 (1091) 7-13 noyabr 2019-cu il

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır


## Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovu qəbul edib.**
**Bakı şəhərinin inkişafının daim diqqət mərkəzində olduğunu bildirən Prezident İlham Əliyev deyib:**
- Bilirsiniz ki, mən şəhərdə gedən abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət edirəm, bir çox layihələrin təşəbbüskarı olmuşam. Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Bakıya gələn qonaqlar, o cümlədən mənim həmkarlarım həmişə paytaxtda gedən quruculuq-abadlıq işləri haqqında öz təəssüratlarını bölüşürlər və qeyd edirlər ki, Bakı doğrudan da dünyanın ən gözəl şəhərlərindən biridir.
Şəhərin ekoloji vəziyyəti yaxşılaşır, bir çox önəmli layihələr icra edilmişdir. Əvvəlki illərdə şəhərin havasını çirkləndirən mənbələr aradan götürüldü. Onların arasında, ilk növbədə, keçmiş Balaxanı zibilxanasını qeyd etməliyəm. Bu zibilxana elə bir tüstü buraxırdı ki, havanın keyfiyyəti böyük dərəcədə aşağı düşmüşdü və insan sağlamlığına böyük zərər verirdi. İndi keçmiş Balaxanı zibilxanasının yerində müasir poliqon qurulub və zibilin çeşidlənməsi, bərk məişət tullantılarının yandırılması istiqamətində böyük addımlar atılıb, böyük investisiyalar qoyulub, zibilyandırma zavodu inşa edilibdir. Biz bu ekoloji fəlakət mənbəyini aradan götürdük.
Digər ekoloji fəlakət mənbəyi Bibiheybət neft mədənləri idi. Oradakı vəziyyət, ümumiyyətlə, çox acınacaqlı idi, neftlə çirklənmiş yerlər, gölməçələr. Bunların hamısı aradan götürüldü. İndi orada gözəl park salınıb və vətəndaşların sərəncamına verilib. Eyni zamanda, idman şəhərciyi yaradılıb, müasir idman hovuzu, digər ictimai obyektlər tikilib.
Böyükşor gölünün də vaxtilə böyük təhlükə mənbəyi olduğunu deyən dövlət başçısı onilliklər ərzində bu gölə axıdılan kanalizasiya, lay suları, neftlə çirklənmiş suların o bölgəni də ekoloji fəlakət zonasına çevirdiyini qeyd etmiş, hazırda oranın tam təmizləndiyini, Olimpiya Stadionunun vaxtilə bataqlıq kimi tanınan yerdə tikildiyini demişdir.
O, vurğulamışdır ki, şəhərin təsərrüfatı yenilənir və bu il şəhər təsərrüfatının müasirləşdirilməsi istiqamətində işlər aparılıb. Həm dövlət investisiya proqramı çərçivəsində, eyni zamanda, Prezidentin ehtiyat fondunun vəsaiti hesabına lift təsərrüfatı yenilənir, nümunəvi həyətlər qurulur. Heydər Əliyev Fondu bu sahədə çox böyük iş aparır. Dam örtüklərinin təzələnməsi üçün ehtiyat fondundan 10 milyon manat vəsait ayrılmışdır.
**Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov şəhərin abadlaşdırılması və inkişafı ilə bağlı görülən işlər barədə məlumat verib. O, deyib:**
- Bu gün Bakı Şəhər İcra Hakimiyyətinin və rayon icra hakimiyyətlərinin balansında 11 min yaşayış binası var. Onları şərti olaraq həyətləri olan və olmayanlara bölmək olar. Deməli, bu gün həyətləri olan binaların sayı 6331-dir. Sizin tapşırığınıza uyğun olaraq, 2018-2019-cu illərdə 273 nümunəvi məhəllə yaradılıbdır. Mən burada bir məsələyə də toxunmaq istərdim. İlk növbədə, Leyla xanım Əliyevanın və onun təsisçisi olduğu IDEA İctimai Birliyinin fəaliyyətini qeyd etməyə dəyər. Möhtərəm cənab Prezident, İctimai Birliyin səyləri nəticəsində bu gün Bakı şəhərində yeni bir format – məhəllələrarası parklar formatı tətbiq olunub və olunur.
Bu ərazilərdəki onlarla binanın fasadları, dam örtükləri, blokları təmir olunub, su təchizatı sistemi yenilənib və bütün yaş kateqoriyaları üçün həm istirahət etmək, həm idmanla məşğul olmaq, həm də asudə vaxtı səmərəli keçirmək üçün şərait yaradılıbdır. Bu proses davam edir.
İlin axırınadək daha 15 yeni nümunəvi məhəllə istifadəyə veriləcəkdir. Bizim hesablamalarımıza görə, yaxın illərdə hələ 743 bu cür layihə icra etmək mümkündür. Bu proses davam edir.

## İsveçrə ilə Azərbaycan arasında əlaqələr sürətlə inkişaf edir



Azərbaycan İsveçrə üçün mühüm ölkədir. Ölkələrimiz arasında əlaqələr yüksək səviyyədə inkişaf edir. İsveçrə ilə Azərbaycan həm Dünya Bankı çərçivəsində sıx əməkdaşlıq edir, həm də öz aralarındakı iqtisadi əlaqələri gücləndirirlər.
Bu fikirləri açıqlamasında Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın həmsədri Ervin Bollinqer bildirib.
O qeyd edib ki, Birgə Komissiya iki ildən bir keçirilən iclaslarında iqtisadi əlaqələrin perspektivlərini müzakirə edir, eləcə də hər iki ölkədə və dünyada gedən iqtisadi proseslər barədə fikir mübadiləsi aparır. Komissiya çərçivəsində bazarların analizi aparılmaqla yanaşı, hansı şirkətlərin hansı bazarda daha uğurlu fəaliyyət göstərə biləcəyi nəzərdən keçirilir, qarşılıqlı ticarət dövriyyəsi və investisiyalar üçün göstəricilər müqayisə edilir. "Ölkələrimiz arasında iqtisadi əlaqələr sürətlə inkişaf edir. Son illərdə ticarət dövriyyəsində və investisiyalarda artım müşahidə olunur. SOCAR-ın İsveçrədə yanacaqdoldurma məntəqələri şəbəkəsinə yatırdığı sərmayələr xüsusi qeyd edilməlidir", - deyə E. Bollinqer bildirib.
Komissiyanın həmsədri qeyd edib ki, İsveçrədən Azərbaycana əsasən istehlak məhsulları və sənaye malları ixrac olunur. Qeyri-neft sektoru məhsulları ilə bağlı böyük potensial mövcuddur. İsveçrə şirkətləri Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə öz töhfələrini verə bilərlər.


PASHA Bank

Azərbaycan xalqını
9 noyabr –
Dövlət bayrağı günü
münasibətilə
ürəkdən təbrik edir!

# PUL SİYASƏTİ DAYANIQLI İQTİSADİYYATIN MÜHÜM AMİLİDİR

***29 iyun 2019-cu il tarixdə "İqtisadiyyat" qəzetinin redaksiyasında "Pul siyasəti dayanıqlı iqtisadiyyatın mühüm amilidir" mövzusunda dəyirmi masa keçirilmişdir. Həmin dəyirmi masada müzakirə olunan məsələləri sizlərin diqqətinə çatdırırıq.***

**Ziyad Səmədzadə:** Bu gün burada bizim dəyərli alimlərimiz iştirak edirlər: Qorxmaz İmanov – AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor; Məhiş Əhmədov – iqtisad elmləri doktoru, professor, ADİU-nun kafedra müdiri; Zahid Məmmədov – iqtisad elmləri doktoru, professor, ADİU-nin Elm Departamentinin direktoru; Zöhrab İbrahimov – iqtisad üzrə fəlsəfə doktoru ADİU-nin dosenti; Azər Ələsgərov - Mərkəzi Bankın Monetar Siyasət Departamentinin direktoru; Elşad Səmədzadə - iqtisad üzrə fəlsəfə doktoru, ADİU-nun dosenti, Aİİ-nin sədr müavini; Asif Həsənov - Gəncə Aqrar Universitetinin kafedra müdiri, iqtisad üzrə fəlsəfə doktoru; Ağanemət Ağayev – iqtisad üzrə fəlsəfə doktoru; Rafiq Qarayev – iqtisadçı-sahibkar; Vüqar Vəliyev – iqtisadçı.

Biz bundan əvvəl də kölgə iqtisadiyyatına, rəqəmsal iqtisadiyyata həsr olunmuş, iqtisadi potensial barədə bir neçə dəyirmi masa keçirtmişik. Bu gün isə müasir mərhələdə pul siyasəti məsələsini müzakirə edəcəyik. Belə bir problemin ortaya atılmasının zəruriliyi bir çox şərtlərlə müəyyən olunur.

Əvvəla, son illərdə Azərbaycan iqtisadiyyatında baş verən proseslər bir daha sübut etdi ki, düşünülmüş pul siyasəti olmalıdır. Manatın devalvasiyası, onu müəyyən edən obyektiv səbəblər, bundan sonra Azərbaycan iqtisadiyyatında baş verən proseslər, dövlət başçısının müəyyən etdiyi qabaqlayıcı tədbirlər pul-kredit siyasətinin müzakirəsinin hər zaman aktual olduğunu bir daha təsdiq edir.

Mən dəfələrlə, həm çıxışlarımda, həm də yazılarımda birmənalı şəkildə bəyan etmişəm ki, Azərbaycan dövləti müstəqillik əldə etdikdən sonra çox düşünülmüş pul-kredit siyasəti apardı və bu, bizə imkan verdi ki, Azərbaycanın iqtisadiyyatını qoruyaq, onu inkişaf etdirək, iş adamlarında, xüsusilə də xarici şirkətlərdə inamı artıraq ki, Azərbaycan düşünülmüş pul siyasəti yeridir.

Eyni zamanda, bu gün yeni çağırışlara uyğun olaraq, yeni tələblər qoyulur və mən dəfələrlə demişəm, bu gün də o mövqedəyəm ki, Mərkəzi Bankın xüsusi səlahiyyətləri həmişə olmuşdur, bu gün də olmalıdır. Çünki Mərkəzi Bankın xüsusi səlahiyyətlərinin olmasıbizi bir çox problemlərdən xilas etdi.

Pul siyasəti və real sektor, real sektorun strukturu, istehlak kreditlərinin həcmi, onun həcminin ölkə iqtisadiyyatına, real sektora dəstək vermək baxımından qiymətləndirilməsi, bütövlükdə qlobal risklər, bu riskləri nəzərə alaraq biz pul siyasətini necə həyata keçirməliyik? Necə etməliyik ki, bizim xarici iqtisadi əlaqələrimizdə, tədiyyə balansında müsbət meyillər güclənsin, ixracımızı artıraq, daxili bazarı qoruyaq, milli iqtisadiyyatın rəqabət qabiliyyətini artıraq, sahibkarlarımız real sektora vəsait qoymağa maraqlı olsunlar? İstərdim bütün bunlar barəsində bu gün burada hər hansı radikallığa varmadan səmimi söhbət edək.

M2-nin, aqreqatların dəyişməsi meyillərini qiymətləndirək, dünya ölkələrinin təcrübəsini əsas götürək, Azərbaycanın şəraitini nəzərə almaqla, bütün bu məsələlərə münasibətimizi bildirək.

**Azər Ələsgərov:** Əvvəla, belə önəmli mövzuya toxunduğunuzavə Mərkəzi Bankdan da bura nümayəndə dəvət etdiyinizə görə sizə çox təşəkkür edirəm. Mən qısa olaraq pul siyasəti ilə bağlı Mərkəzi Bankın mövqeyi barədə məlumat verim.

Mərkəzi Bank hesab edir ki, pul siyasəti vasitəsilə ölkədə iqtisadi artımı dəstəkləməyin optimal yolu qiymət sabitliyini təmin etməkdir. Çünki bilirsiniz ki, qiymət sabitliyi, yəni aşağı inflyasiya dayanıqlı iqtisadi artımın ən vacib şərtlərindən biridir. Qiymət sabitliyi pozulanda iqtisadi subyektlər üçün qeyri-müəyyənlik yaranır, onlar gələcək işlərini planlaşdıra bilmirlər, xüsusən gəlirlərin və yığımların dəyərsizləşməsi təhlükəsi yaranır. Deyək ki, banklar uzun müddətə və ucuz kreditlər verməkdən çəkinirlər, yəni inflyasiyanın neqativ cəhətləri məlumdur və ona görə də müasir dövrdə dünyanın əksər ölkələrinin mərkəzi bankları haqqında qanunda qiymət sabitliyi başlıca məqsəd kimi müəyyən olunmuşdur. Həmçinin, Azərbaycan "Mərkəzi Bankı haqqında" Qanunda da qeyd olunmuşdur ki, Mərkəzi Bankın son məqsədi öz səlahiyyətləri çərçivəsində qiymət sabitliyini təmin etməkdən ibarətdir və bütün dünya ölkələrində olduğu kimi, Azərbaycanda da bu qiymət sabitliyinə nail olmaq üçün siyasət yürüdərkən Mərkəzi Banka əməliyyat müstəqilliyi verilmişdir. Əməliyyat müstəqilliyi o deməkdir ki, Mərkəzi Bank özünün son məqsədinə nail olmaq üçün sərəncamında olan alət və mexanizmlərdən istənilən kombinasiyada istifadə edə bilər və zəruri halda hökumətə yox demək imkanı da var. Yəni, sabah hökumət Mərkəzi Banka təzyiq etsə ki, dövlət büdcəsində kəsir var, bu və ya digər səbəbə görə Mərkəzi Bank pul emissiya edib bu kəsiri örtməlidir, o zaman Mərkəzi Bankın qanunla "yox" demək ixtiyarı var.

Bu son məqsədə nail olmaq sahəsində nəticə nədən ibarətdir? Nəticə ondan ibarətdir ki, son 20 il ərzində Azərbaycanda inflyasiya birrəqəmli səviyyədə - təxminən 7 faiz ətrafında olmuşdur. Düzdür, bu illərin bəzilərində ikirəqəmli səviyyəyə də gəlib çatıb. Deyək ki, 2008-ci ildə 20 faizə çatdı, devalvasiyadan sonra 13 faiz səviyyəsində oldu, amma illərin əksəriyyətində birrəqəmli səviyyədə qalıb, bir çox illərdə bir faiz, iki faiz, üç faiz ətrafında dəyişib. Son iki ildə 2 faizə yaxın bir səviyyədədir. Mərkəzi Bank buna necə nail olub? Qeyd edim ki, Mərkəzi Bank qanunda da qeyd edildiyi kimi, öz səlahiyyətləri çərçivəsində qiymətlərə təsir göstərməyə çalışır. Nəyə görə bu qanunda "öz səlahiyyətləri çərçivəsində" sözü yazılıb? Çünki aydın məsələdir ki, Mərkəzi Bank tam olaraq bütün qiymətlərə təsir göstərə bilməz. Elə amillər var ki, o, Mərkəzi Bankın təsirindən kənardadır. Azərbaycanda 30-dan çox məhsul və xidmət var ki, onun qiyməti inzibati qaydada müəyyən olunur və Mərkəzi Bank pul kütləsini artırıb-azaltmaqla ona təsir göstərmək imkanına malik deyil.

Son hədəfə, aydın məsələdir ki, aralıq hədəflər vasitəsilə nail olunur. Dünyada pul siyasətinin aralıq hədəfi olaraq məzənnədən, pul kütləsindən və faiz dərəcələrindən istifadə oluna bilər. Hansı aralıq hədəfə üstünlük verilməsi ölkə iqtisadiyyatının xüsusiyyətlərindən asılıdır və Azərbaycanda da ölkə iqtisadiyyatının xüsusiyyətlərini nəzərə alaraq pul siyasətinin başlıca aralıq hədəfi rolunda məzənnə çıxış edir. Nəyə görə? Çünki bizdə hələ də idxaldan asılılıq səviyyəsi çox yüksəkdir. İnflyasiya əhəmiyyətli dərəcədə məzənnədən asılıdır.

Eyni zamanda, ölkənin dövlət zəmanətli borcu 15 milyard dollar ətrafındadır. Eyni zamanda, həm hüquqi, həm də fiziki şəxslərin banklar qarşısında böyük məbləğdə xarici valyutada kreditləri vardır və bütün bunlar məcbur edir ki, məzənnə pul siyasətinin başlıca aralıq hədəfi kimi istifadə olunsun. Amma pul siyasətinin ikinci dərəcəliaralıq hədəfi olaraq pul kütləsindən istifadə olunur. Pul kütləsi həm kredit qoyuluşları, həm də məzənnənin özü vasitəsilə valyuta bazarlarına təsir göstərməklə inflyasiyaya təsir göstərə bilir. Aralıq və əməliyyat hədəflərinə isə Mərkəzi Bank sərəncamında olan alətlərlə təsir göstərməyə çalışır. Alətlər arasında ilk növbədə açıq bazar əməliyyatları qeyd olunmalıdır. Açıq bazar əməliyyatları həm likvidliyin verilməsi, həm də likvidliyin cəlb olunması istiqamətindətətbiq olunur. Hansı istiqamətdə alətlərin aktiv olması iqtisadiyyatda, xüsusən də bank sistemində likvidlik vəziyyətindən asılıdır. Əgər bank sistemində izafi likvidlik varsa, onda aydın məsələdir ki, banklar tərəfindən Mərkəzi Bankın kreditlərinə tələb az olacaq, əksinə, banklarda artıq pullar olduqda isə, Mərkəzi Bank makroiqtisadi sabitliyə xələl gəlməməsi üçün onları sterilizasiya etməlidir. Mərkəzi Bank öz qısamüddətli notlarını buraxmaq, depozit əməliyyatları həyata keçirməklə sterilizasiya əməliyyatlarını aktiv şəkildə yerinə yetirir və çalışır ki, pul kütləsini iqtisadiyyatın tələbatına uyğun şəkildə tənzimləsin. Yəni, sadəşəkildə desək, əgər ölkədə iqtisadi artım 2 faiz, bizim hədəflədiyimiz inflyasiya 4 faizdirsə, deməli, iqtisadiyyatın pulun artımına olan tələbatı 6 faizdir. Yəni, pul kütləsinin 6 faizdən çox artmağı, ya qısamüddətli, ya da uzunmüddətli dövrdə fəsad verə bilər. Ona görə dəartıq pulları sterilizasiya etmək lazımdır.

Mərkəzi Bankın sərəncamında məcburi ehtiyat normaları, valyuta bazarına müdaxilələr var. Hazırda Mərkəzi Bank çox nadir hallarda valyuta bazarına müdaxilələr edir. Mərkəzi Bank tətbiq etdiyi alətlərlə iqtisadiyyata təsir göstərir. Əgər makroiqtisadi sabitlik meyilləri, ölkənin xarici mövqeyi güclüdürsə və valyuta bazarında hər hansı təzyiq müşahidə olunmursa, onda faiz dərəcələrinin azalması üçün əlverişli şərait yaranır. Son illər faktiki inflyasiyanın azaldığını nəzərə alaraq, Mərkəzi Bank ardıcıl şəkildə faiz dərəcələrini aşağı salır. 2018-ci ilin əvvəlindən bəri Mərkəzi Bankın uçot dərəcəsi 15 faizdən 8,5 faizə endirilmişdir və hər bir qərarı barədə Mərkəzi Bank aktiv şəkildə kommunikasiya edir, yəni müasir dövrdə bu kommunikasiyanın özü də pul siyasətinin alətlərindən biri kimi qiymətləndirilir. Lakin bəzən Mərkəzi bank alətlərdə dəyişiklik etmədən, hər hansı açıqlama verməklə də makroiqtisadi proseslərə təsir göstərə bilir.

Gələcəklə bağlı mövqeyimizdən də danışmaq istərdim. Biz aşağı, sabit və proqnozlaşdırıla bilən inflyasiyaya nail olmağa çalışmalıyıq. Mən bir qədər öncə də dedim, bizdə son 20 ildə inflyasiya başqa ölkələrlə müqayisədədəyişkən olub. İndi biz çalışmalıyıq ki, qarşıdakı 10 il ərzində hər il inflyasiya 2 faiz olsun, proqnozlaşdırıla bilsin, hər kəs öz işini bu şəraitdə optimallaşdırsın. Bunun üçün biz pul siyasətinin rejimini dəyişməyi düşünürük. Bilirsiniz ki, pul siyasətinin dörd rejimi mövcuddur. Bunlar inflyasiyanın hədəflənməsi, məzənnənin hədəflənməsi, pul kütləsinin hədəflənməsi və faiz dərəcəsinin hədəflənməsidir. Biz hesab edirik ki, inflyasiyanın hədəflənməsi rejimi Azərbaycan üçün optimal rejim ola bilər. Amma bu rejimin tətbiq olunmasının bir çox şərtləri vardır və o şərtlərin də reallaşdırılmasına artıq faktiki olaraq başlanılmışdır.

**Ziyad Səmədzadə:** Çox sağ olun. Mövzumuzla əlaqədar kifayət qədər dəyərli məlumatlar verdiniz.

**Qorxmaz İmanov:** Mən analitik olduğumdan məsələnin bir az analitik tərəfləri haqqında danışacağam və dünyada bu proseslərə yanaşma barədə fikirlərimi deyəcəyəm.

Hər şeydən əvvəl, ümumiyyətlə, Avropa Birliyi ölkələri və Avropanın bir çox ölkələri maliyyə-kredit sisteminin normal fəaliyyəti üçün qabaqcadan xəbərdarlıq sistemləri üzərində çalışırlar və onlara uyğun modellər təklif edirlər. Bununla əlaqədar olaraq mən də dünya üzrə mövcud modellərin təhlilindən sonra Azərbaycan üçün maliyyə dayanıqlığı indeksinin hesablanması modelini vermişəm və bu model dörd alt qrupu əhatə edir.

Birinci maliyyə bazarları indeksinin hesablanmasıdır. Maliyyə bazarlarının indeksi dedikdə, ümumi kreditin ümumi daxili məhsula olan nisbəti göstəricisinə baxılır. Sonra kredit faizi ilə borclanma faizi arasında olan fərq nəzərdən keçirilir və dünyada məşhur olan, xüsusən də Amerikada istifadə edilənHerhindal Hirşman indeksinə əsasən maliyyə bazarının konstrasiya səviyyəsi hesablanır və ona uyğun göstərici verilir.

İkinci maliyyə uyğunluğu indeksidir. Bu, fiskal defisitin ümumi daxili məhsula olan nisbətinin gösətiricisidir. Sonra cari əməliyyatlar hesabıdır, inflyasiya səviyyəsidir, real effektiv valyuta kursudur, dövlət borcunun ümumi daxili məhsula olan nisbətidir, beynəlxalq üzvlərin aktivlərinin idxalı həcmində olan nisbətdir, qeyri-dövlət kreditlərinin ümumi kreditlərdə olan çəkisidir, M2-nin ümumi beynəlxalq ehtiyatların artmasına təsir göstərmə səviyyəsidir.

Üçüncü alt sistem maliyyə möhkəmliyi indeksidir. Buraya bank vasitələrinin geri qaytarılma səviyyəsi, bank kapitalının aktivləri, onun yüksəlməsi və bank sisteminə ümumi təsiri, likvidlik səviyyəsi daxildir.

Dördüncü - qlobal iqtisadi vəziyyət, yəni dünya iqtisadiyyatının artım tempidir, dünya bazarında neftin qiymətidir.

Münhen qrupunun xüsusi indeksi əsasında mən qeyri-səlis riyaziyyatdan istifadə edərək, Azərbaycan üçün model qurmuşam və deyim ki, bu modeli mən Asiya ölkələrinin bank sistemlərinin ümumi iclasında məruzə etmişdim və orada məndən bu modeli haqqı ödənilməklə aldılar.



**Ziyad Səmədzadə:** Elşad, çox sağ ol.

Azərbaycanın strateji valyuta ehtiyatları ÜDM-dən çoxdur. Bu yaxşıdır, pisdir?

**Elşad Səmədzadə:** Bank kreditləri ilə müqayisə etdikdə 16 milyarddır. Çində 15 trilyonluq ümumi daxili məhsul müqavilində valyuta ehtiyatları 3 trilyon, yəni ÜDM-in 20%-i həcmində saxlanılıb.

**Məhiş Əhmədov:** Biz onu borc vermişik.

**Elşad Səmədzadə:** Norveçin pensiya fondunda 1 trilyon dollarlıq vəsait var.

**Ziyad Səmədzadə:** Mən cavab tapmaq istəyirəm buna.

**Qorxmaz İmanov:** Mərkəzi Bankın valyuta ehtiyatlarının kifayətli normaları var. O normanı Elşad dedi. Üç aylıq mal və xidmət idxalı təxminən 4 milyarddır.

**Ziyad Səmədzadə:** Ümumiyyətlə, biz gələcəkdə müəyyən bir norma qəbul edə bilərikmi ki, valyuta ehtiyatlarının neçə faizi toxunulmaz qalsın gələcək nəsillər üçün, bu barədə ümumiyyətlə fikir varmı?

**Asif Həsənov:** Elşad müəllim təklif edir ki, valyuta ehtiyatlarını, ölkə daxilində saxlayaq, onu ölkədən kənara qoymayaq.

**Zahid Məmmədov:** Bütün dünya üzrə qəbul olunmuş standart yoxdur. Məsələn, Norveç ancaq strateji ehtiyatların idarə edilməsindən əldə olunan gəlirlərdən istifadə edir.

**Ziyad Səmədzadə:** Onlarda gəlir neçə faizdir?

**Zöhrab İbrahimov:** Yəni, faiz etibarilə eyni faizdir. Amma mənim yadıma gəlir ki, Neft Fondunun ilkin əsasnaməsi hazırlananda, o əsasnamədə yazılmışdır ki, ancaq vəsaitlərin idarə edilməsindən əldə olunan gəlir büdcəyə daxil olmalıdır.

**Asif Həsənov:** Başqa bir məsələ var, onu aydınlaşdırmaq istəyirəm. Bizim makro göstəricilər, qənaət göstəricisi var ki, o qənaət göstəricisi daxili investisiyanın kötüyüdür. Amma, təəssüf ki, bizdə o, çox aşağıdır. Onun haqqında düşünməyə dəyər. Bu haqda heç düşünmürük.

**Məhiş Əhmədov:** Həqiqətən, bu gün çox aktual problem müzakirə olunur. Zahid müəllim burada nəzəri aspektə toxundu. Milton Fredmen - bu nəzəriyyənin yaradıcısı deyir ki, son 100 ildə Amerikada mövcud olan bütün böhranların əsasında sərt pul krediti siyasəti durur. A.Şvarsla o, birlikdə kitab yazıblar və buna görə Nobel mükafatı alıblar. Lakin formalaşan, inkişaf edən bazar iqtisadiyyatı yetkin dərəcəyə çatmayan ölkələr üçün birmənalı monetar siyasətin tətbiqi zəruri effekt vermir. Ona görə də Azərbaycan kimi ölkələrdə hökmən dayanıqlı fiskal siyasətlə effektiv monetar siyasətin optimal nisbətdə tətbiqi çox zəruridir.

Azərbaycanda monetar siyasətin iqtisadi artıma yönəlməsinə, onun real sektora təsirinə, ixracın stimullaşdırılmasına effektiv təsir göstərməməsinin səbəbi də, mənə görə, Neft Fondundan transfertlərin həcmi və bilavasitə Mərkəzi Bankın inflyasiya proseslərinə kəskin müdaxiləsidir. Çünki biz inflyasiyanı iqtisadi amillərlə aradan qaldırmırıqsa, Mərkəzi Bank monetar bazara, monetar siyasətə müdaxilə edərək, manatın məzənnəsini saxlayırsa, bu cür yanaşma iqtisadi inkişafa stimul vermir. Sadəcə olaraq, əhalinin həyat səviyyəsi üçün şərait yaradır və bir az müvəqqəti xarakter daşıyır. Nəyə görə? Azərbaycanda inflyasiyanı doğuran amillərin böyük əksəriyyəti idxalla bağlıdır, çünki bizim idxalımızın strukturunda qeyri-neft sektoru xüsusi çəkilidir, neftin qiyməti qalxanda onda məhsulların qiyməti qalxır. Əgər biz monetar siyasətə dövlətin tənzimləmə mexanizmi ilə üstünlük veririksə, hökmən o iqtisadi şərtlərə mümkün qədər əsaslanmalıdır. Çünki müdaxilə olmadan inflyasiyanın hədəflənməsi və yaxud da bazarda olan pul kütləsinin sterilizasiyası mümkün deyil. Biz dünya iqtisadiyyatına qovuşuruq, istər-istəməz iqtisadiyyatımızı mövcud şərtlərə uyğun qurmalıyıq. Ona görə də burada sosial problemin həlli və məşğulluğu təmin etmək vacibdir. Ölkənin real gəlirləri xərcləri ilə uzlaşmalıdır.

**Ziyad Səmədzadə:** Çox sağ olun. Buyurun, Zöhrab müəllim.

**Zöhrab İbrahimov:** 2017-ci ildə iqtisadi artım xeyli azalmışdı və 2018-ci ildə biz cüzi də olsa, artıma nail olduq. İlin əvvəlindən də bu artım rəsmi statistika rəqəmlərinə görə davam edir. Təbii ki, bu, müsbət bir tendensiyadır. İstənilən halda devalvasiya Azərbaycan iqtisadiyyatının, təbii ki, bir neçə il ərzində geri düşməsinə səbəb oldu.

Devalvasiyadan əvvəl Azərbaycanda maliyyə dərinliyi, yəni ÜDM-də kredit qoyuluşlarının xüsusi çəkisi 40 faizə yaxınlaşmışdı. Ancaq 2017-ci ildə kredit qoyuluşlarının ÜDM-ə nisbəti 16,7 faiz, 2018-ci ildə bir qədər də azalıb 16,3 faiz təşkil edib. Yəni, göründüyü kimi, üç dəfə azalıb. ÜDM-ə, təbii ki, bank aktivlərinin nisbəti xüsusi təsir göstərir. ÜDM-də bank aktivlərinin xüsusi çəkisi devalvasiyadan əvvəl 60 faizi keçmişdisə, bu gün artıq 37 faiz səviyyəsindədir.

**Ziyad Səmədzadə:** Optimal nə qədər sayılır?

**Zöhrab İbrahimov:** Ziyad müəllim, elə ölkələr var ki, ÜDM-də100 faizlik həddi bir neçə dəfə keçir. İnkişaf etmiş və keçmiş iqtisadiyyatı yaşadan ölkələrdə iqtisadi artım üstünlük təşkil edir.

Bizdə son 20 il ərzində inflyasiyanın səviyyəsi orta illik 7 faiz təşkil edir. Devalvasiyadan sonra bizim ən yüksək inflyasiyamız 2017-ci ilin yekunlarında 13 faizə yaxın olmuşdur. İqtisadiyyatın pulla təmin olunması isə ölkəmizdə 2017-ci ildə 10 faiz, 2018-ci ildə 18 faiz səviyyəsində olub.Devalvasiyadan qabaq monetarizasiya əmsalı 30 faiz idi, təbii ki, bu, bir qədər də Azərbaycan iqtisadiyyatının bugünkü reallıqlarını göstərir və biz o 7 faizlik orta inflyasiya səviyyəsinə monetarizasiya əmsalını azaltmaqla nail olmuşuq. Təbii ki, bu, bir qədər ziddiyyətli məsələdir ki, monetarizasiya əmsalını çoxaltmaq inflyasiyaya gətirib çıxarır. O vaxt,təbii ki, inflyasiya səviyyəsi xeyli aşağı idi və bu gün devalvasiyadan sonra iki dəfə azalmasına baxmayaraq, yenə də aşağı səviyyədədir.

Bu gün manata görə depozit faiz dərəcələri hətta sığorta fondunun maksimal manatla müəyyən etmiş olduğu depozit faiz dərəcələrində 15 faiz, dollarla isə 3 faizdir. Lakin gəlin nəzər yetirək. Bu faizlər yüksəldikdən sonra Azərbaycan banklarında depozitlərin sayı istər əhali, istərsə də hüquqi şəxslər tərəfindən artdı, ya yox? Yəni, son məlumatlar ondan xəbər verir ki, 2018-ci ilin yekunlarına görə, bizdə depozitlərin həcmi 10 faiz artıb, fiziki şəxslərin depozitlərinin həcmi 9,6 faiz olub. Nəzərə almaq lazımdır ki, fiziki şəxslərin depozitlərində 62 faizdən çoxu xarici depozitlərin payına düşür. Biz xarici valyutada olan depozitlərə 3 faiz,manata isə 15 faiz maksimal məbləğ müəyyən etmişik. Təbii ki, artıq bu nisbətə baxmaq lazımdır, yəni manata olan 15 faiz depozitlə xarici valyutada olan 3 faiz depoziti biz bərabərləşdirək. Azərbaycan iqtisadiyyatına əgər bu qədər yüksək faizlər vəd edilirsə, nəyə görə depozitlər devalvasiyadan sonra artmır? Təbii ki, bu, banklara olan inamla da izah oluna bilər.

**Növbəti məsələ** - bu gün bank müştərilərinin sayı milyonlarladır. Bir müəssisənin, eyni zamanda, bura fiziki şəxslər də daxildir, bir neçə hesabı olur və bu gün 18 milyona yaxın bank müştərisinin hesabları var. Bu rəqəm devalvasiyadan qabaq 16 milyon olub. Maraqlı məqam ondan ibarətdir ki, depozit hesablar da məhz bu müştəri hesablarına daxildir. Devalvasiyadan qabaq depozit müştərilərinin sayı ümumi bank hesablarının sayında 3 faizə yaxın idi. Ancaq bu gün həmin o depozit müştərilərinin nisbəti bütövlükdə bank müştərilərinin sayında 2 faizə qədər azalıb. Mütləq mənada depozit faiz dərəcələri, təbii ki, ikiqat azalıb. Çünki depozit müştərilərinin sayı əgər devalvasiyadan qabaq 460 min ədəd idisə, bu gün 367 min ədəddir. Təbii ki, bu da monetar siyasətə təsir edən amillərdən biridir.

Nəhayət, banklardan kənarda dövr edən pul vəsaitlərinin bizdə xüsusi çəkisi bu gün xeyli yüksək olaraq qalır. Düzdür, son on il ərzində 60 faizdən 7-8 faiz bənd aşağı düşüb. Ancaq bu gün M0-ı aqreqat kimi daha banklardan kənardakı pul vəsaitləri kimi qeyd edirsiniz. Bu gün M0 aqreqatının tərkibində banklardan kənarda da dövr edən pul vəsaitlərinin sayı 52 faizdir.Yəni, bu, kifayət qədər böyük bir məbləğdir. Nəzərə alsaq ki, həmin inflyasiyanın orta illik 7 faiz olması, eyni zamanda banklardan kənarda 52 faizlik pul kütləsinin dövr etməsi, təbii ki, Azərbaycanda pul siyasətinin müəyyən mənada yeni relslər üzərinə keçirilməsini əsaslandırır.

Mərkəzi Bankın uçot dərəcəsi aləti var, klassik alətdir. Lakin tam səmimi qeyd edək ki, bu alət Azərbaycanda işləmir. Nə üçün? Ona görə ki bu gün 15 faizlik uçot dərəcəsindən 8,5 faizə düşmüşüksə, azı kredit faiz dərəcələri son 20 il ərzində bizdə elə olduğu kimi qalır. Yəni, bu alətin bizdə işləməməsiMərkəzi Bankın alətlər arsenalında bir daha ölçülüb biçilməlidir, təhlil olunmalıdır.

**Ziyad Səmədzadə:** Mən dünyanın bütün ölkələri üzrə pul kütləsinin ÜDM-ə nisbətini hesablamışdım, 2007-2009-cu illərdə Çinin tədavüldə olan pul kütləsi ümumi daxili məhsulun 60-70 faizini təşkil edirdi. Pul kütləsinin ÜDM-də xüsusi çəkisi ilə iqtisadi inkişaf arasında əlaqəni araşdırmağa yenidən ehtiyac vardır. Yəni, burada bizim şəraitimizin, müəyyən obyektiv cəhətləri var. Biz gərək bu barədə düşünək.

**Ağanemət Ağayev:** İcazənizlə, mən pul siyasətinin kommunikasiyası barədə danışardım. Federal Ehtiyat Sisteminə rəhbərlik etmiş Bernanke hesab edirdi ki, hazırda pul siyasətinin keyfiyyəti10 faiz işdən, 90 faiz onun təqdimatından asılıdır. Bu, çox sərt iddiadır. Həqiqətən, pul siyasəti mürəkkəb iqtisadi dövranda baş verir.






# “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan 20 milyon ton neft hasil edilib



Bu ilin üçüncü rübündə “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokundan 20 milyon ton neft hasil edilib.

Bu barədə “BP-Azerbaijan” şirkətinin hesabatında deyilir.

Üç rüb üçün AÇG-dən ümumi hasilat – “Çıraq” (41 000), “Mərkəzi Azəri” (133 000), “Qərbi Azəri” (121 000), “Şərqi Azəri” (92 000), “Dərinsulu Günəşli” (95 000) və “Qərbi Çıraq” (59 000) platformalarından birlikdə – gündə orta hesabla 541 000 barrel və ya ümumilikdə təqribən 148 milyon barrel, yəni 20 milyon ton olub.

Üçüncü rübün sonunda AÇG-də ümumilikdə 124 neft hasilat quyusu və 42 su injektor quyusu və 7 qaz injektor quyusu istismarda olub. Rübün sonunadək 9 neft hasilat quyusu qazılıb.

# Gələn il qeyri-neft sektorunda əhəmiyyətli artım gözlənilir

Həyata keçirilən kompleks tədbirlər nəticəsində 2020-ci ildə qeyri-neft sahəsində 8,8 faiz artım proqnozlaşdırılır.



Bu barədə İqtisadiyyat naziri Mikayıl Cabbarov noyabrın 5-də Milli Məclisdə 2020-ci ilin dövlət büdcəsi haqqında qanun layihəsinin müzakirəsi zamanı deyib. Nazir qeyd edib ki, növbəti ildə qeyd olunan proqnozların reallaşdırılması üçün biznes mühitinin yaxşılaşdırılması, sahibkarlıq sahəsində yoxlamaların dayandırılması və digər addımların davam etdirilməsi önəmlidir. Görülən işlər nəticəsində qeyri-neft sahəsində ildən-ilə artım qeydə alınır. Bu tendensiyanın növbəti illərdə də davam edəcəyi gözlənilir.









# AZƏRBAYCANDA “KREATİV İQTİSADİYYAT” FENOMENİNİN QIĞILCIMLARI

**(əvvəli ötən sayımızda)**

Məlumdur ki, XXI əsrin əvvəllərindən başlayaraq inkişaf etmiş ölkələrdə “kreativ iqtisadiyyat” və ya ideyalar iqtisadiyyatı adını almış postindustrial inkişafın yeni trendi fəal şəkildə yayılmağa başlamışdır. Bu iqtisadi modeldə ən qiymətli məhsul ideya və innovasiyadır. Yalnız onlar böyük gəlir gətirir.

Kreativ iqtisadiyyat BMT tərəfindən dünyada sürətlə inkişaf edən sahələrdən biri kimi qəbul edilmişdir. Onun illik artım sürəti orta hesabla 8,7% təşkil edir.

İnkişaf etməkdə olan ölkələrdə kreativ iqtisadiyyatın payı elə də yüksək deyil. Azərbaycanda 2017-2020-ci illəri əhatə edən və ölkənin ÜDM-ində kreativ iqtisadiyyatın payının artmasına istiqamətlənən Dövlət Proqramı fəaliyyət göstərir.

Məlumdur ki, kreativ iqtisadiyyatın ən yaxşı göstəricilərini Böyük Britaniya nümayiş etdirir. Bu ölkədə qeyd olunan sektor digər sferalara nisbətən iki dəfə sürətlə artır və onun həcmi 92 mlrd. funt-sterlinq (121,6 mlrd.dollar) qiymətləndirilir.

Bu uğurlu təcrübənipaylaşmaq məqsədilə British Council (Britaniya Şurası) “Creative spark” (“Yaradıcı qığılcım”) adlanan proqramı irəli sürmüşdür. Bu beynəlxalq əməkdaşlıq proqramı Böyük Britaniya ilə əməkdaşlıq edən ölkələrdə gənclərin sahibkarlıq fəaliyyətinə cəlb edilməsinə (təlimə) və gənclər arasında biznes yönümlü təfəkkürün formalaşmasına yönəldilmişdir.

Maliyyələşmə Azərbaycanda, eləcədə Cənubi Qafqazın və Mərkəzi Asiyanın digər ölkələrində 35 yeni beynəlxalq tərəfdaşlıq əlaqələrinin yaradılması üçün ayrılmışdır.

Azərbaycandan müsabiqə seçimində qalib gələn təşkilatlardan biri İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) olmuşdur. Bu Mərkəz Böyük Britaniyanın Newcastle Universiteti ilə birgə öz fəaliyyət planını təklif etmişdir.

Mərkəzin əsas trendi ali məktəblərin tələbələri və müəllimləri arasında biznes təfəkkürünün formalaşmasına yönəldilmişdir. Tərəfdaşlar kimi üç ali məktəb – Xırdalandakı Bakı Mühəndislər Universiteti (BMU), Bakıdakı Azərbaycan İqtisad Universiteti (UNEC) və Gəncədəki Azərbaycan Aqrar Universiteti (AAU) seçilmişdir.

Artıq bu üç ali məktəbdə “Creative spark” layihəsi çərçivəsində tələbələrin və müəllimlərin cəlb edilməsi məqsədilə onların geniş məlumatlanmasına istiqamətlənən təqdimat mərasimi keçirilmişdir.

Eyni zamanda, Newcastle Universitetindən olan mütəxəssislərin iştirakı ilə bir qrup müəllimlər üçün treninqlər keçirilmişdir. Treninqlərdə hər birindən 3-4 nəfər olmaqla, hər üç tərəfdaş ali məktəb təmsil olunmuşdur. Bu sferanın Avropa səviyyəsinə yaxınlaşması məqsədilə sahibkarlıq üzrə universitet proqramları çərçivəsində bir qrup tələblərə ən səmərəli və müasir informasiyaların verilməsi metodları müzakirə olunmuşdur.

Bu layihəyə Azərbaycan Respublikasıİqtisadiyyat Nazirliyinin cəlb edilməsi nəzərdə tutulmuşdur.

Bundan əlavə, innovasiya biznes-inkubatorların açılması və ən yaxşı biznes ideyalar müsabiqəsinin keçirilməsi planlaşdırılır və qaliblərin mükafatlandırılması nəzərdə tutulur.



Beləliklə, “Creativ spark” layihəsinin birbaşa benefisiarı üç ali məktəb sayılır ki, bunlarla da İİTKM əməkdaşlıq edir. Mərkəzin özü onun iştirakında daha uzunmüddətli və qlobal nəticələri nəzərə alaraq əlaqələndirici rolunu oynayır.

Qeyd etmək lazımdır ki, proqramın birinci mərhələsi uğurla başa çatmışdır və onun məqsədi Böyük Britaniya ilə layihə iştirakçıları ölkələrinin ali məktəbləri və yaradıcı təşkilatları arasında əməkdaşlığın nizama salınması idi. Azərbaycandan 11 sifariş daxil olmuşdur ki, onların arasından ən perspektivləri seçilmişdir. Seçilmiş tərəfdaşlara Azərbaycan İnşaat və Memarlıq Universiteti ilə Londonun South Bank Universitetini, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti iləLankasterin Grand Core Universitetini, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə Newcastle Universitetini göstərmək olar.

Növbəti mərhələdə Britaniya universitetləri ilə əməkdaşlıq çərçivəsində sahibkarlıq mərkəzlərinin yaradılması, tələbələr və kreativ sənayenin sahibkarları üçün treninqlərin keçirilməsi nəzərdə tutulur.

Hazırda perspektiv startaplar haqqında dünya mətbuat bazasına görə, Azərbaycanın nümayəndələrinin yaratdıqları 200-ə yaxın startap mövcuddur. Azərbaycan nisbətən kiçik ölkə olsa da, burada kifayət qədər kreativ düşünən insanlar mövcuddur. Sadəcə öz potensiallarını inkişaf etdirmək üçün onlara müəyyən dəstək tələb olunur.

**F.M.Qarayev,**
**BDU-nun dosenti**











# 2019-cu ilin ən varlı şəhərləri - TOP-10

"New World Wealth"in mütəxəssisləri apardıqları araşdırmalar nəticəsində 2019-cu ildə dünyanın ən varlı şəhərlərinin ilk 10-luğunu müəyyən ediblər. Araşdırmada əsas prinsip şəhərin bütün sakinlərinin sosial vəziyyətinin, o cümlədən daşınmaz əmlak, pul, səhmlər və biznesdəki payının hesablanması olub. Qeyd edək ki, hökumətin vəsaiti hesablamalardan xaric olunub.

**Sinqapur**



Sinqapur iqtisadiyyatı dünyada adambaşına düşən ÜDM-in ən yüksək inkişaf etmiş bazar iqtisadiyyatına sahib ölkəsidir. Ölkədə elektronika istehsalı, gəmiqayırma və maliyyə xidmətləri sektoru inkişaf edib. Ölkə qiymətlərin sabitliyini qoruyur.

**Sidney**



Avstraliyanın ürəyi hesab edilən Sidneydə vətəndaşlar orta hesabla adambaşına ən yüksək gəlir əldə edir. Ən böyük Avstraliya şirkətlərindən dördünün Sidneydə ("Caltex Avstraliya", "Birlik Bankı", "Westpac" və "Woolworth") baş ofisi var. "Sidney Futures" Birjası (SFE) Avstraliyanın Sakit Okean bölgəsindəki ən böyük birjalarından biridir.

**Honkonq**



Ölkə iqtisadiyyatı sərbəst bazar, aşağı vergi və dövlətin iqtisadiyyata müdaxiləsiz prinsipinə əsaslanır. Honkonq limanı idxalda gömrük rüsumu ödəməyən, əlavə dəyər vergisi və ya onun ekvivalentləri olmayan pulsuz limandır.

**Los-Anceles**

Los-Anceles dünyanın ən böyük mədəniyyət, elm, iqtisadiyyat və təhsil mərkəzlərindən biridir.
Şəhər həm də kino, teatr, musiqi, ədəbiyyat və televiziya sahəsində əyləncə sənayesinin ən böyük mərkəzlərindəndir.

**Şanxay**

Şanxay Çinin maliyyə və ticarət mərkəzidir. Şanxay birjası investorlar üçün müasir və əhəmiyyətli platformadır.
Şanxay Qızıl birjası Çinin ən böyük qiymətli metal birjasıdır.

**Pekin**

Pekin Çin Xalq Respublikasının siyasi, təhsil və mədəniyyət mərkəzidir.
Bununla birlikdə, Pekin son illərdə sahibkarlıq fəaliyyətinin lokomotivi və innovativ müəssisələrin yaradılması sahəsindəki rolunu getdikcə daha çox artırır.

**London**

London Böyük Britaniya və Avropanın ən önəmli iqtisadiyyat və maliyyə mərkəzidir.
Bir çox ingilis və çoxmillətli şirkətlərin baş ofisi Londonda yerləşir. Buraya BP, "Royal Dutch" "Shell", "Unilever", "Corus Group", "SABMiller", "Cadbury" və s. daxildir.



**San-Fransisko**

Tarixən San-Fransisko iqtisadiyyatının dayağı turizm olub. San-Fransisko film və musiqi mədəniyyəti sayəsində bütün dünyada tanınır.
Vadidə, həmçinin biotexnoloji və biotibbi tədqiqat mərkəzi də fəaliyyət göstərir. Şəhərdə 10 nəfərdən az işçisi olan kiçik şirkətlər bütün müəssisələrin 85%-ni təşkil edir.



**Tokio**

Tokio dünyanın üç əsas maliyyə mərkəzindən, iqtisadi cəhətdən ən inkişaf etmiş aqlomerasiyalarından biridir.



Tokio böyük beynəlxalq maliyyə mərkəzi olaraq dünyanın bir neçə ən böyük investisiya bankının və sığorta şirkətinin qərargahıdır.

**Nyu-York**

Nyu-York qlobal maliyyə, siyasi, iqtisadi və mədəni mərkəzdir. Şəhərdə Nyu-York Birjası, NASDAQ, Amerika Birjası, Nyu-York Ticarət Birjası və Nyu-York Ticarət Palatası kimi birjalar fəaliyyət göstərir.



## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə ailəsi ilə birlikdə Azərbaycan Kooperasiya Universitetinin professoru Zahid Məmmədova həyat yoldaşının vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500

# Milli Məclisin komitələrində 2020-ci ilin dövlət büdcəsi müzakirə olunub



Noyabrın 5-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, Təbii ehtiyatlar, energetika və ekologiya, Aqrar siyasət və İctimai birliklər və dini qurumlar komitələrinin birgə iclası keçirilib.
İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, iclasda "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi müzakirə olunacaq. Komitə sədri qeyd edib ki, illər keçdikcə Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə öz büdcə parametrlərinin daha da yaxşılaşdırılması üçün tədbirlər görür. Büdcə layihəsi "Büdcə sistemi haqqında" Qanuna uyğun olaraq vaxtında Milli Məclisə təqdim edilib. 2020-ci ilin büdcəsi Azərbaycanın müstəqillik tarixində ən irihəcmli büdcədir.
Gələn ilin büdcəsinin əsas parametrləri barədə məlumat verən Maliyyə naziri Samir Şərifov bildirib ki, 2020-ci ilin icmal büdcəsinin gəlirləri 27 milyard 533 milyon manat təşkil edəcək. İcmal büdcə xərclərinin yuxarı həddi 29 milyard 488 milyon manat olacaq ki, bu da 2019 illə müqayisədə 2 milyard 117 milyon manat və ya 7,7 faiz çoxdur. İcmal büdcənin kəsiri 1 milyard 955 milyon manat və ya proqnozla nəzərdə tutulan ümumi daxili məhsulun 2,3 faizinə bərabər olacaq. 2020-ci il dövlət büdcəsinin gəlirləri ümumi daxili məhsulun 29 faizi həcmində olmaqla nominal ifadədə 24 milyard 135 milyon manat nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 967 milyon manat və ya 4,2 faiz çoxdur. Dövlət büdcəsinin gəlirlərinin tərkibində neft gəlirləri 56,1 faiz və ya 13,5 milyard manat, qeyri-neft gəlirləri 43,9 faiz və ya 10,6 milyard manat nəzərdə tutulur. Cari illə müqayisədə xüsusi çəki nisbətində neft gəlirləri 3 faiz bənd azalıb, müvafiq olaraq isə qeyri-neft gəlirlərinin xüsusi çəkisi 3 faiz bənd artıb. Vergi orqanlarının xətti ilə dövlət büdcəsinə 7 milyard 875 milyon manat daxilolma nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 559 milyon manat və ya 7,6 faiz çoxdur. Gömrük orqanlarının xətti ilə büdcəyə 4 milyard manat, yəni 2019-cu ilə nisbətən 298 milyon manat və ya 8 faiz çox vəsait daxil olması proqnozlaşdırılır. Növbəti ildə Dövlət Neft Fondundan dövlət büdcəsinə 11 milyard 350 milyon manat və ya cari illə müqayisədə 14,3 milyon manat az transfer nəzərdə tutulur. 2020-ci il dövlət büdcəsinin xərcləri ümumi daxili məhsulun 32,3 faizi səviyyəsində və ya 26 milyard 914 milyon manat nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 1 milyard 724 milyon manat və ya 6,8 faiz çoxdur.
Sonra çıxış edən İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, gələn il neft-qaz sənayesi ilə yanaşı, qeyri-neft sektorunda da əhəmiyyətli artım gözlənilir. Həyata keçirilən kompleks tədbirlər nəticəsində 2020-ci ildə qeyri-neft sahəsində 8,8 faiz artım proqnozlaşdırılır. Nazir qeyd edib ki, növbəti ildə qeyd olunan proqnozların reallaşdırılması üçün biznes mühitinin yaxşılaşdırılması, sahibkarlıq sahəsində yoxlamaların dayandırılması və digər addımların davam etdirilməsi önəmlidir. Görülən işlər nəticəsində qeyri-neft sahəsində ildən-ilə artım qeydə alınır. Bu tendensiyanın növbəti illərdə də davam edəcəyi gözlənilir.
Hesablama Palatasının sədri Vüqar Gülməmmədov diqqətə çatdırıb ki, 2020-ci ilin dövlət büdcəsi müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın proqnozlaşdırılan ən böyük büdcəsidir.
Vüqar Gülməmmədov cari ildə dövlət büdcəsinin qeyri-neft gəlirlərinin əhəmiyyətli dərəcədə artdığını diqqətə çatdırıb.
Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bildirib ki, görülən işlər nəticəsində ölkəmizdə bu ilin 10 ayı ərzində əməkhaqqı fondu əhəmiyyətli dərəcədə artıb.
Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan sosialyönümlü dövlətdir. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən tədbirlərin mərkəzində vətəndaşlarımızın sosial rifahı dayanır. Nazir qeyd edib ki, 2020-ci ildə əhaliyə ödənişlərin məbləğində artım gözlənilir. Bu ödənişlər, demək olar ki, hər il artırılır. Gələn il özünüməşğulluq proqramının daha da genişləndirilməsi nəzərdə tutulur.
Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov isə bildirib ki, 2020-ci ildə qarşımızda dayanan başlıca vəzifə makroiqtisadi sabitliyin təmin olunmasıdır. Elman Rüstəmov qeyd edib ki, növbəti ildə də qiymət sabitliyi və manatın məzənnəsinin dayanıqlılığı diqqət mərkəzində olacaq. Artıq üçüncü ildir ki, manatın xarici valyutaya nisbəti sabitdir.
Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev ölkəmizdə kölgə iqtisadiyyatı ilə mübarizədə əldə olunmuş uğurlardan danışıb. Qeyd edib ki, bunun nəticəsində dövlət büdcəsinə daxilolmaların həcmi artıb. Növbəti ildə də bu məsələ gömrük orqanlarının diqqət mərkəzində olacaq. Səfər Mehdiyev bildirib ki, gələn il də Dövlət Gömrük Komitəsi tərəfindən büdcəyə daxilolmaların həcminin artırılması proqnozlaşdırılır.
Dövlət Neft Fondunun sədri Şahmar Mövsümov Fondun gəlir və xərcləri barədə məlumat verib. Bildirib ki, gələn ilin büdcəsində neftin bir barrelinin qiyməti 55 dollar nəzərdə tutulub.
2020-ci ilin dövlət büdcəsi layihəsinin müzakirələri zamanı çıxış edən Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov, Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, deputatlardan Vahid Əhmədov, Əli Məsimli, Şəmsəddin Hacıyev, Fazil Mustafa və Mirzəcan Xəlilov büdcə layihəsi barədə fikirlərini bildiriblər, qeydlərini və təkliflərini veriblər.
İclasın sonunda Maliyyə naziri Samir Şərifov deputatların qaldırdıqları məsələlərə münasibətini bildirib, bir sıra təkliflərin nəzərə alınacağını diqqətə çatdırıb.
Sonra 2020-ci ilin dövlət büdcəsi layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.
Bununla da beş komitənin birgə iclası başa çatıb.

## Borcalanların kredit risklərinin tənzimlənməsi qaydalarına dəyişiklik edilib

Azərbaycan Respublikasının
Maliyyə Bazarlarına Nəzarət Palatası

Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) tərəfindən "Bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupu üzrə kredit risklərinin tənzimlənməsi haqqında Qaydalar"a dəyişiklik edilib.
Palatanın mətbuat xidmətindən bildirilib ki, ölkə başçısı İlham Əliyevin biznes mühitinin daha da yaxşılaşdırılması, "iqtisadiyyatın real sektoruna yönələn kreditləşmənin artırılması" çağırışı ilə əlaqədar növbəti addım kimi MBNP tərəfindən edilmiş dəyişiklik nəticəsində müddəti 7 ildən artıq olan istehlak kreditlərinin maksimum həcmi bankın I dərəcəli kapitalının 0,1 faizi ilə məhdudlaşdırılıb.
Banklarda kredit riskinin maksimum həcmini tənzimləyən bu dəyişiklik istehlakçıların zəruri olmayan uzunmüddətli istehlak kreditləri götürməməsinə təsir etməklə məsuliyyətli borclanma vərdişlərinin formalaşdırılmasını təmin edəcək. Qeyd olunan dəyişikliyin əsas məqsədi istehlakçıların izafi borclanmasının qarşısının alınması və onların hüquqlarının qorunmasıdır.

## Neft Daşlarında 10 quyunun qazılması layihələndirilib



Bu barədə SOCAR-ın İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədov Neft Daşlarının 70 illiyi ilə bağlı təşkil olunan media-turda deyib.
O bildirib ki, Neft Daşları uzun müddət istismar olunmasına baxmayaraq, yataqdan çıxarılan məhsulda suyun nisbəti cəmi 35 faizdir ki, bu da belə yaşlı yataq üçün yaxşı nəticə hesab olunur. Aparılan səmərələşdirici tədbirlər nəticəsində son 25 ildə Neft Daşları neft və qazçıxarma idarəsi (NQÇİ) üzrə neft hasilatı 20 faiz artaraq, 2018-ci ildə 1 milyon tondan artıq olub. NQÇİ tərəfindən 2019-cu ilin 9 ayında 790 min ton neft, 72 milyon kubmetr qaz hasil edilib. Hazırda yataq üzrə qalıq ehtiyatlar təqribən 210 milyon ton, çıxarıla bilən ehtiyatlar isə 18-20 milyon tondur. Gələcəkdə yeni texnologiyalar vasitəsi ilə qalıq ehtiyatların çıxarılma nisbəti yüksələ bilər.
İ.Əhmədov, həmçinin qeyd edib ki, hazırda qazma işi aparılan 331 saylı meydançadan hər birinin gözlənilən gündəlik hasilatı 10 ton neft olmaqla 10 ədəd quyunun qazılması layihələndirilib. Burada ilk quyunun qazılmasına bu ilin may ayında başlanıb və artıq 4 quyu qazılıb. Bu quyuların gündəlik neft hasilatı 48 ton təşkil edir. Hazırda 5-ci quyuda quyudibi 830 metr olmaqla qazma işi davam etdirilir.

## Kimlər elektron qaimə-faktura verməkdən azaddır?




Vergi qanunvericiliyinin tələblərinə əsasən, e-qaimələrin tətbiqi uçot məlumatlarının qeydə alınması sahəsində dəyişikliklərə səbəb olmaqla, uçot-məlumat bazasının şəffaflığının, eləcə də qeydiyyata alınan əməliyyatların artımına gətirib çıxarıb.
Bu barədə iqtisadçı ekspert Ruslan Atakişiyev deyib.
Elektron qaimə-fakturaların istifadəsinin Vergi Məcəlləsinin 71-1-ci maddəsi ilə tənzimləndiyini söyləyən R.Atakişiyev qeyd edib ki, istər VÖEN-i olan fərdi sahibkar, istərsə də hüquqi şəxs yaradaraq fəaliyyət göstərən şəxslər göstərdikləri hər hansı xidmətə, hər hansı əmtəəni təqdim etdiklərinə görə mütləq qarşı tərəfə e-qaimə verməlidirlər: "Vergi Məcəlləsinin 71-1.1-ci maddəsinə əsasən, məcəllə ilə müəyyən edilən hallarda fərdi sahibkarlara və hüquqi şəxslərə malları təqdim edən, işləri görən və xidmətləri göstərən şəxs onlara elektron qaimə-faktura verir".
Ekspert əlavə edib ki, qanunvericilikdə e-qaimə təqdim etməkdən azad şəxslər də nəzərdə tutulub və bu məsələ də Vergi Məcəlləsinin 71-1.1-ci maddəsilə tənzimlənir. Həmin maddəyə əsasən, vergiödəyicisi kimi vergi orqanlarında uçota alınmayan şəxslərin elektron qaimə-faktura vermək hüququ yoxdur: "Yəni, fərdi şəkildə işləyən və vergi orqanlarında qeydiyyata alınmayan şəxslər elektron qaimə-faktura vermirlər".
Həmçinin diqqətə çatdırılıb ki, gələn ildən bu sahədə müəyyən yeniliklərin olması gözlənilir.

## Neft Daşları və "Palçıq pilpiləsi"ndən 14,3 mlrd. kubmetr qaz hasil olunub



Neft Daşları və "Palçıq pilpiləsi" yataqlarından indiyədək 14,3 milyard kubmetr qaz hasil olunub.
Bu barədə SOCAR-ın İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədov Neft Daşlarının 70 illiyi ilə bağlı təşkil olunan media-turda deyib.
O bildirib ki, ötən müddətdə Neft Daşları yatağından 176 milyon ton neft və 13,6 milyard kubmetrə yaxın həcmdə təbii qaz hasil edilib.
1967-ci ildə burada 7,6 milyon ton neft hasil edilib ki, bu da həmin ildə Azərbaycanın ümumi neft hasilatının 1/3 hissəsinə bərabər idi.
Ümumilikdə "Neft Daşları" neft və qazçıxarma idarəsinin (NQÇİ) istismar etdiyi Neft Daşları və "Palçıq pilpiləsi" yataqlarından indiyədək 186 milyon ton neft hasil olunub. Beləliklə, Neft Daşları NQÇİ istismarı dövründə ölkənin neft hasilatının 13 faizini birbaşa təmin edib.

Burada qeyri-səlislik nədir? Burada elə göstəricilər var ki, onlar ölçüyə gəlmir, mən də belə qiymətlərlə Azərbaycan üçün maliyyə dayanıqlığı indeksini hesablamışam. Bu,təxminən 2015-ci ili əhatə edir və o dövrdə olan fəaliyyət qiymətləndirilib. Əlbəttə ki, bu modellərin köməyi ilə bəzi proqnozları da qabaqcadan vermək olur.

Mənim təklifim odur ki, bizim monetar sistemdə işləyən ayrı-ayrı təşkilatlar belə analitik üsullardan istifadə edib, qabaqcadan xəbərdarlıq sistemləri ilə hesablamalar aparsınlar və onun əsasında ekspertlər müəyyən bir nəticə çıxarsınlar.

**Ziyad Səmədzadə:** Dəyərli fikirlərdir, həqiqətən, təşəbbüslər yaxşıdır. Mən belə hesab edirəm ki, Mərkəzi Bankda bu istiqamətdə, yəqin ki, yeni modellər var.

**Azər Ələsgərov:** Oxşar modellərdən biz istifadə etmişik və o modellər əsasında bank sisteminin dayanıqlığı bank nəzarəti o vaxt Mərkəzi Bankda olandamüntəzəm olaraq qiymətləndirilirdi.Bildiyimə görə, Maliyyə Bazarlarına Nəzarət Palatasında bu modellərdən istifadə hal-hazırdadavam edir.

**Zahid Məmmədov:** Bayaq hörmətli Azər müəllim qeyd etdi ki, bütün ölkələrdə Mərkəzi Bankın qarşısında duran əsas məqsəd qiymət sabitliyini təmin etməkdir. Tarixə nəzər salsaq, 1930-cu illərdə Mərkəzi Bankın qarşısında duran əsas məqsəd iqtisadi artım idi. Sonra baxdılar ki, iqtisadi artımı təmin etməkdə müəyyən problemlər ortaya çıxır. Məsələn, İngiltərədə bilavasitə konstitusiyada, Mərkəzi Bankın əsas məqsədlərindən biri məşğulluğun təminatı olaraq qeyd olunur. Daha sonra qarşıda duran ən əsas məqsədlərdən biri tədiyyə balansının tarazlığı oldu və nəticədə Bretton Vuds sistemində ciddi fəsadlar dağıldıqdansonra həmin bütün mərkəz banklarının mandatlarında ciddi dəyişiklik baş verdi. 200-ə yaxın ölkənin mərkəzi bankının qanunlarını götürsək, onların 190-da əsas məqsəd qiymətlərin sabitliyidir. Qiymətlərin sabitliyinin təminatı ilə bağlı isə müxtəlif alətlərdən istifadə edilir.

Rayonlarda hər kəs olub, burada bəlli saat çərçivəsində siz bostanı sulamaq məcburiyyətindəsiniz. Monetar siyasət olaraq siz də kredit, pul miqdarı, kredit hərəkətliliyinin faiz dərəcəsinə təsir edərək, iqtisadiyyatı yönləndirməlisiniz. Zaman-zaman baxmalısınız ki, hansı çərçivədə hərəkət etməlisiniz. Bizpul siyasətinin effektivlik göstəricilərinə də diqqət etməliyik. Bayaq hörmətli Qorxmaz müəllim modellərdən danışdı. Burada ən əsas pul siyasətinin effektivlik göstəriciləri, iqtisadiyyatın qəbul etdiyi inflyasiya səviyyəsi,milli valyutanın kursu, məzənnənin həm ixracatçılara, həm idxalçıların maraqlarına uyğunluğu, pul siyasətinin şok təsirlərə qarşı həssaslığı nəzərə alınmalıdır. Milli ödəniş sisteminin keyfiyyəti və etibarlılığı, maliyyə bazarı infrastrukturunun inkişaf səviyyəsi, sistem əhəmiyyətli resursların tənzimlənməsi, maliyyə nəzarət tədbirləri də burada çox vacib amillərdəndir. Artıq 2016-cı ilin fevral ayından ölkəmizdə makroinstitusional fəaliyyət həyata keçirən orqan Maliyyə Bazarlarına Nəzarət Palatası oldu. Türkiyəyə baxdığımızda burada sahəvi nəzarət sisteminin olduğunu görürük. Meqarequlyator dediyimiz sistemdə maliyyə bazarının ayrı-ayrı seqmentlərinə nəzarət edən vahid sistem mövcuddur. İngiltərə bu sistemə keçdi və 2015-ci ildən sonra İngiltərə geri dönüş etdi. Bütün makroinstitusionalsiyasət Mərkəzi Banka verildi və Rusiya da 2013-cü ildən sonra aparılan böyük tədqiqatlar nəticəsində monetar siyasət Mərkəzi Banka bağlanmışdır.

Azərbaycanda baş verən iki devalvasiya hadisəsi ilə əlaqədar bu gün də ictimaiyyətdə ən çox müzakirə mövzularından biri bu iki siyasətin vahid sistemdə birləşdirilməsinin mümkünlüyüdür. Bu proses necə getməlidir? Yadımdadır, Mərkəzi Bankın saytında bu haqda məlumatlar var idi. Mən bu gün Maliyyə Bazarlarına Nəzarət Palatasında o ssenariləri görə bilmirəm. Əvvəllər Mərkəzi Bank bir neçə ssenari verirdi ki, neftin qiyməti düşərsə, belə ola bilər, böhran sırasında Rusiyada, tutaq ki, pul baratlarının azalması ümumi daxili məhsula nə qədər təsir edər və s., yəni ciddi tədqiqatlar var idi.

Nəzəri tədqiqatlar bu gün dünyada da çox aktualdır. Bəzən təəssüflər olsun ki, nəzəri tədqiqatlara ehtiyac olmadığı qeyd olunur. Leonardo da Vinçinin belə bir fikri var: "Nəzəriyyə sərkərdədir, praktika əsgərlər". Bu günbiz bunu pul siyasətiadlandırırıq. 2013-cü ildən sonra bizdə pul krediti siyasəti pul siyasəti adlandırılmağa başlandı. Rusiyada bu, pul-kredit siyasəti, İngiltərədə monetar siyasət olaraq qalır.

Mən bu gün "Mərkəzi Bank haqqında" Qanuna baxanda, valyuta siyasətini tapa bilmirəm. Orada valyuta siyasəti necədir? Qanunun ayrı-ayrı maddələrində var, lakin valyuta siyasəti haqqında tam açıqlama yoxdur. Bəzi hallarda valyuta siyasətini həyata keçirən orqan Nazirlər Kabineti olaraq qeyd edilir. Orada bu, həmçinin maliyyə-kredit siyasəti adlandırılır. Axı, bildiyimiz qədər bu gün maliyyə-kredit siyasəti yoxdur. Büdcə siyasəti var və Maliyyə Nazirliyi tərəfindən monetar siyasət həyata keçirilir. Mərkəzi Bankda və Parlamentdə monetar siyasət müzakirə olunmur. Mən hesab edirəm ki, ümumiyyətlə, monetar siyasətin nəzəriyyəsi yazılmalıdır. Təəssüflər olsun ki, bank işi haqda sovet dönəmindən qalma kitablar var və hələ də onlardan istifadə olunur. Bu gün monetar siyasətin vəzifəsi sadəcə bankların fəaliyyətini tənzimləmək deyil. Monetar siyasət böyük orqandır. Ona görə bank işi deyəndə burada iki məsələ - makro bank işi, yəni monetar siyasət və mikro bank fəaliyyəti nəzərə alınmalıdır. Son olaraq qeyd edim ki, Qlazev hesab edir ki, pul siyasətinin, pul miqdarının həcmini artırmaq, faiz dərəcələrini aşağı salmaq, iqtisadiyyatı gücləndirmək lazımdır. Qlazevə görə, Rusiyanın qızıl valyuta ehtiyatlarıbu ölkənin iqtisadiyyatının güclənməsinə xidmət etməlidir.

Mən hesab edirəm ki, bizim qızıl valyuta ehtiyatlarımız yetəri qədərdir, biz yetəri qədər də güclüyük. Kiçik və orta sahibkarlığın inkişafı üçündövlət tərəfindən bütün gərəkli dəstəklər verilir. Bəs, niyə dövlət tərəfindən? Məsələn, iki sahibkar - biri dövlət tərəfindən ucuz kreditlə təmin olunur, o biri ola bilmir. Axı, burada bazar iqtisadiyyatı şərtlərinə uyğun rəqabətqabiliyyətlilikdə də problemlər yaranır. Mən hesab edirəm ümumi olaraq elə bir faiz dərəcəsi olmalıdır ki, optimal qaydada hamı bundan istifadə etsin. Yəni, mən ümumiyyətlə güzəştli kreditlər ifadəsinin əleyhinəyəm. Çünki bu, müasir dövrün şərtlərinə uyğun deyil. Həm iqtisadi artımı, həm məşğulluğu, həm tədiyyə balansının tarazlığını, həm də qiymət sabitliyini təmin etmək lazımdır. Mən hesab edirəm, Ziyad müəllim, sizin rəhbərliyinizlə monetar siyasətin nəzəri, praktiki əsasları kitabı yazılmalıdır. Bu, günün tələbidir.



**Ziyad Səmədzadə:** Zahid müəllim çox maraqlı məsələlərə toxundu. Ümumiyyətlə, üç nəfər çıxış edib, çox maraqlıdır, mənim gözlədiklərimdən də yüksəkdir.

Biz vergidən azad olmalara, güzəştlərin nəyə görə tətbiqi məsələlərinə diqqətlə yanaşmalıyıq, ölkədə sistem var. Texnoparkları, sənaye məhəllələrinin formalaşması üçün güzəştlər müəyyən edilib. Amma onların səmərəliliyini də müəyyən etməliyik.

**Elşad Səmədzadə:** Güzəştlə bağlı Ziyad müəllimin dediyi ilə Zahid müəllimin dediyi arasında kompromis təklifim var. Bir var ki, sahəyə güzəşt verilsin, məsələn, toxuculuğa. Bir də var ki, toxuculuq sahəsində işləyən bir sahibkara güzəşt verilsin, digərlərinə verilməsin.

**Ziyad Səmədzadə:** Amma bayaq Zöhrab müəllim də dedi ki, bankdankənar dövriyyə var. 50 faizdən yuxarı bankdankənar dövriyyədir.

**Vüqar Vəliyev:** Bayaqkı proses mənim üçün çox maraqlı idi. Supermarketlərin hər birinin inkasasiya istiqaməti var. Özləri öz daxilində pulları istəristəməz öz kassalarına mədaxil etmədilərlər. Harayonda supermarketin pulu kassadan çıxarıb, harasa təhvil verməsi mümkün deyil.

**Elşad Səmədzadə:** Yəni, burada fikir nədir? Tutaq ki, hansısa bir regionda böyük supermarket işləyir. O elə bil ki, regionun "şirəsini" yığır öz supermarketinə, oradan da qoyur inkassator maşınına, gətirir Bakıya. Mən düşünürəm ki, əsas məsələ regionların ÜDM-inin artmasına nail olmaqdır. Onda müəyyən məhsulların alışı üçün pul regiondan Bakıya gələcəksə, digər məhsulların alınması üçün pul Bakıdan regiona gedəcək.

**Məhiş Əhmədov:** Pul kütləsi olmalıdır ki, dövriyyə olsun, dövriyyə olanda iştirakçı subyektlər istəristəməz oradan mənfəət götürür və proses gedir, iqtisadi artım olur.

**Ziyad Səmədzadə:** Bir var ki, konkret müştəridir, konkret layihə var, dövlət buna razılıq verib.

**Elşad Səmədzadə:** Ola bilsin ki, xarici şirkət unikal bir avadanlıq istehsal edir. Onu da qısa vaxta çatdırmaq olmur. Onda qanunvericilikdə nəzərdə tutmaq olar ki, unikal avadanlığın idxalı zamanı istisna olsun. Yəni, xaricə ödəmə ilə malın idxalı arasındakı vaxt uzadılsın. Yoxsa, başqa bir problem var. Bəzən görün nə edirlər? Brend butik adı ilə pulu xaricə çıxarırlar. Tutaq ki, paltarın qiyməti əslində 20 manatdır. Amma belə təqdim edirlər ki, guya qiyməti 2 min manatdır. Yəni, hər cür fırıldaq var. Ona görə buna nəzarət olmalıdır. Gömrük və vergi orqanları arasında informasiya mübadiləsinin aparılması təqdirəlayiqdir.

Burada çeşidli fikirlər, rəngarəng ideyalar səsləndi. Sevindirici haldır ki, Azərbaycanda bu sahədə belə elmi potensial var. Onun bir hissəsi bu gün göstərildi.

Üzgüçülərin bir fikri var - əgər əl, ayaq, boyun və nəfəs hərəkətləri koordinasiya edilməsə, onda irəli üzmək mümkün olmur. Fikirləşirəm ki, iqtisadiyyat da belədir. Bayaq da qeyd olunduğu kimi, problemlərin həllini təkcə pul siyasətinin üzərinə qoymaq olmaz ki, inkişaf yalnız bundan asılıdır. Burada struktur siyasəti, vergi siyasəti, büdcə siyasəti, bunlar hamısı koordinasiya olunmalıdır ki, iqtisadiyyat irəliyə gedə bilsin. Əks halda o Krılovun təmsilindəki kimi olacaq ki, hərə iqtisadi sistemi öz tərəfinə dartacaq.

Burada Mərkəzi Bankın xətrini istədiyimiz nümayəndələri əyləşib. Mərkəzi Bankdan da əlavə bu sahələrə təsir edən qurumlar var. Onların arasında koordinasiyaya ehtiyac var. Statuslar da müzakirə oluna bilər. Pul siyasəti və iqtisadi inkişafla əlaqədar müxtəlif iqtisadi ədəbiyyatlar bu asılılığı müxtəlif cür görüb. Artıq Milton Fridmanın dövründə bəyan edilib ki, pul alətləri ilə iqtisadiyyata daha çox təsir etmək olar. Bundan sonra da ağırlıq düşüb müəyyən qədər Mərkəzi Bankın üzərinə. Biz hamımız istəyirik ki, Vətənimiz çiçəklənsin. Amma ola bilər ki, inkişafın yollarına fərqli baxışlarımız var. İndi bu masanın da mahiyyəti odur ki, baxışları mümkün qədər bir-birinə yaxınlaşdıraq.

Ümumilikdə, Azərbaycanın milli institutları formalaşandan bəri müxtəlif təsisatlar fəaliyyət göstərib. Amma Mərkəzi Bank bunların içərisində seçilir. Yəni, həm dünyada qəbul olunmuş statusuna, həm də Azərbaycanda bunu formalaşdıran peşəkar komandasına görə. Mürəkkəb vəziyyət olanda fikirləşirsən ki, onsuz da Mərkəzi Bank var. Bu qurum məsələni həll edəcək. Yəni, cəmiyyət içində belə bir fikir var. Bu, özü çox böyük nəticədir.

Bu gün toxunmaq istədiyim məsələlərin əksəriyyətinə toxunuldu. Mən də bir ümumiləşmə etmək, 3 məsələ üzərində dayanmaq istəyirəm: pul kütləsi, milli valyutanın məzənnəsi, bir də valyuta ehtiyatları.

Bayaq Asif müəllim dedi ki, Gəncədən gəlmişik, mən bu böyük təfəkkür mənbəyini salamlamaq üçün Nizami Gəncəvidən bir fikir deyim:

*Bir inci saflığı varsa da suda,*
*Artıq içiləndə dərd verir o da.*

Bu fikri pul kütləsinə də aid etmək olar. Pul kütləsi artıq olanda da ziyandır - qiymət artımı olur, az olanda da ziyandır - iqtisadi dövriyyə, fəallıq potensial qədər olmur.

Bu ilin may ayında Moskva Akademik İqtisadi Forumunda iştirak etdim. Orada Rusiya prezidentinin regional məsələlər üzrə müşaviri, akademik Sergey Qlazyevin çıxışını dinlədim. Siz dediyiniz kimi, onlar da arzulayır ki, pul kütləsi artsın. İndi pul kütləsinin artmasında nə çətinlik var? Bəli, qiymətlərin sabitliyinin saxlanması Mərkəzi Bank qarşısında tələbdir. Mərkəzi Bank bunu qoruyur. Amma başqa orqanların əlində də alətlər var. İnhisarçılıq var. Qiymətlər nə vaxt qalxır? Qıtlıq olanda. Əmtəə bolluğunu yaratmaq Mərkəzi Bankın işi deyil ki? Bunu başqa qurumlar etməlidir. Onu etsələr, bu yük Mərkəzi Bankın üzərinə düşməz.

Digər tərəfdən, misal üçün, bazara çıxışın asanlaşması, struktur siyasət, başqa məsələlər həll olunsa, bu, qiymətlərin sabitliyinə daha çox kömək etmiş olar. Mərkəzi Bank da məcburiyyətdə qalmaz ki, pul kütləsini sıxsın. Burada qlobal amillərin də təsiri var. Rusiya ilə ABŞ arasında olan məsələ bizim iqtisadiyyatımıza da mənfi təsir etdi. Neftin qiyməti aşağı düşdü, Mərkəzi Bank məcbur oldu pul kütləsini azaltsın, daralma etdi ki, əmtəə qiymətləri qalxmasın. Amma digər şərtləri həll edərək, Mərkəzi Banka şərait yaradılsa ki, o, pul kütləsini rahat qaldıra bilsin, onda faizlər də azalar. Çünki mal çox olduqca onun qiyməti aşağı düşür. Pul da çox olduqca onun qiyməti, yəni faizlər aşağı düşəcək. Faiz düşəndə də real sektorumuza kömək olacaq.

İkinci məsələ də buna bağlıdır - valyuta məzənnəsi məsələsi. Valyuta məzənnəsi hər bir ölkənin iqtisadiyyatının güzgüsüdür. Bizim də iqtisadiyyatımız müəyyən obyektiv səbəblərdən neft, qazla bağlıdır. Neftin qiyməti baha olur, manatın da qiyməti bahalanır. Yəni, dollardan baha olur. Neftin qiyməti aşağı düşür, manat da ucuzlaşır. Bu, normaldır. İndi bir sual yaranır. Bəs, neftin qiyməti qalxdı, niyə manat qalxmadı? Neftin bir barreli 70 dollardan düşdü 26 dollara, ona uyğun manat 0,78-dən düşdü 1.70-ə. İndi neft yenidən qalxdı 70 dollara. Niyə manat 1.70-dən 0,78-ə qalxmır?

Xatırladım ki, son dövrdə milli manat 2 dəfə devalvasiya olub. 2015-ci il fevralın 21-də, 2015-ci il dekabrın 21-də.

Səbəblərindən biri odur ki, Mərkəzi Bank bununla çox məşğul oldu, sabitliyi qorumaq üçün çalışdı. Mən, cənab Elman Rüstəmovun Milli Məclisdə çıxışını yada salıram. Onda məzənnə 1,05 idi. O dedi ki, Mərkəzi Bank sabitliyi qorusun, amma nə qədər? Neftin qiyməti düşür, gəlir azalır, idxal isə azalmır. Bunun qabağını necə saxlayaq? . Mərkəzi Bankın ehtiyatları qısa zaman kəsiyində təqribən 11 milyard ABŞ dolları həcmində azaldı. Yəni, 15 milyarddan düşdü 4 milyarda. Mərkəzi Bank devalvasiyanı məcburən etdi. Daha dəqiq desək Mərkəzi Bank məcburi taktik gediş edərək valyuta müdaxilələri həcmini azaltdı və manatın məzənnəsi düşdü.

Amma indi ehtiyatlarımız artır. Bu barədə düşünmək olarmı? Tutaq ki, manat məsələn 1,7-dən 1,6-ya qalxsın. Əgər məzənnə qalxsa, bu, elə müəyyən qədər pul siyasətinə insanların, hətta beynəlxalq aləmdə qəbul olunmuş meyar kimi, ibtidai sinif uşaqlarının inamını da artıracaq. Məzənnə artanda, manata inam da artacaq. Valyutası ucuzlaşan qonşu ölkələrdən mümkün idxalın artımına gəldikdə isə onu gömrüklə tənzimləmək olar. Ona görə də mən bu barədə düşünməyi təklif edirəm.

Ümumiyyətlə, ortamüddətli məzənnə proqnozlarının bildirilməsi iqtisadiyyatın davamlı inkişafı üçün faydalıdır.

Üçüncü məsələ, strateji valyuta ehtiyatları ilə bağlıdır. Yəni, həm Mərkəzi Bankın ehtiyatları, həm də Neft Fondunun ehtiyatları. Mərkəzi Bankın 2019-cu il üçün pul-kredit siyasəti haqqında bəyanatında göstərilib ki, bu ehtiyyatlar 44 milyard ABŞ dolları həcmindədir. (Red: Bu günə 50 milyard ABŞ dollarını üstələyib). O da bəyan edilib ki, bu rəqəm 31 aylıq mal və xidmət idxalına çatar. Müstəqilliyin ilk dövründə təzə-təzə bu müzakirələr başlayanda Beynəlxalq Valyuta Fondu tövsiyə edirdi ki, valyuta ehtiyatları 3 aylıq idxal həcmində olsa, bu, normal haldır. Demək, hazırda bu göstərici on dəfə artıqdır. Moskvada da bu mövzu Rusiya iqtisadiyyatı barədə müzakirə olundu ki, bəlkə bu qədər pulun bir hissəsi real sektora verilsin. Ehtiyatların limiti olsun. Tutaq ki, strateji valyuta ehtiyatları dövlət büdcəsinin xərclərindən nə qədər çox olsun, 2 dəfə çox olsa, bəsdirmi? Bəlkə artığı real sektora gəlsin. Yığım, istehlak, sərmayə qoyuluşunun səmərəli nisbətini təmin etmək vacibdir. Heç olmasa birbaşa real sektora gəlməsə, bəlkə bu vəsaitin bir hissəsi Azərbaycan banklarında saxlanılsın. Azərbaycan banklarında saxlanılsın ki, banklar özləri milli sahibkarlığı kreditləşdirsinlər. Yəni, bu barədə hesab edirəm ki, düşünmək olar.

**Qorxmaz İmanov:** Bir məsələni deyim, bu dördayaqlı inkişafın 2015-ci ildə qəbul olunmuş məqsədləri var, mən birinci dəfə idi ki, görürəm ki, poroq verilir. Ondan artıq olmaz, ondan az olmaz. Baxsan, yeni materiallar çıxıb, həm sosial, həm iqtisadi, həm də maliyyə göstəriciləri üçün poroqlar verilir. Sən onu istəyirsən?

**Elşad Səmədzadə:** Bəli, mən onu istəyirəm. Yəni, nəticədə nə olacaq? Tutaq ki, Neft Fondunun altında bir texnika fondu olsun. Həmişə deyirlər ki, dollar Azərbaycana gəlsə, burada maliyyə bazarına, manatın məzənnəsinə təsir edər. Manat bahalaşar, ixrac azalar. Variantlardan biri odur ki, dollar bir başa gətirilməsin. Tutaq ki, Rafiq müəllim sahibkar kimi mebel istehsal etmək istəyir. Biznes planı təsdiq edəndən sonra İtaliyadan 1 milyon dollarlıq avadanlığı alır. Pulu ona verməsinlər, köçürsünlər İtaliyaya. Avadanlıq Azərbaycana gəlsin. Burada da iş yeri yaradılsın və vergilər ödənilsin. Yadımdadır, İsveçrənin prezidenti Azərbaycana gəlmişdi və öz istəyi kimi bildirdi ki, Azərbaycanın neft pulları İsveçrədə saxlanılsın. Yəni, bu, nə deməkdir? İsveçrədə saxlanılsın və İsveçrə iqtisadiyyatına xeyir versin. Biz də deyirik ki, onun bir hissəsi Azərbaycanda qalsa və tutaq ki, xaricə yerləşdirilən şərtlərlə bizim sahibkarlara verilsə, bunun böyük səmərəsi olar:

Biz bunu qısaca vergi siyasəti ilə müqayisədə etsək, görərik ki, dövlətin vergi siyasəti ilə iqtisadi agentlərin iqtisadi davranışları arasında bazar münasibəti yoxdur. Amma Mərkəzi Bankın pul siyasəti bazarlar üzərindən iqtisadi agentlərə təsir etmək deməkdir. Yəni bu, sanki iynə ilə terapiyaya bənzəyir. Fiskal siyasəti əgər "küt" siyasət adlandırarıqsa, pul siyasəti "iti" siyasət hesab olunur. Burada kiçik bir səhv çox böyük fəsadlar törədə bilər.

Ümumiyyətlə, mərkəzi bankların pul siyasətini ümumi iqtisadi siyasətdə təhliletmək bir qədər düzgün olmazdı. Bu mənada fiskal siyasət, dövlətin tarif siyasəti daxil olmaqla real sektora yönələn siyasət və pul siyasəti - bu üçünün vəhdətinin düzgün koordinasiyası öz effektini verə bilər. Bu da dörd mərhələdən keçməlidir.Belə yanaşma həm nəzəri baxımdan mövcuddur, həm də praktika bunu sübut edir.

Birincisi, aydın və intensiv ünsiyyətdir. İqtisadi siyasət əgər həkimdirsə, iqtisadiyyat özü pasiyentdir. Burada hər şey məsələnin düzgün qoyuluşu və problematikanın çatdırılmasından başlayır. Qısaca haşiyə çıxım, bu gün dünya ölkələrində federal ehtiyat sistemi, Avropa ölkələrinin mərkəzi bankı öz ünsiyyətinin keyfiyyətini necə qiymətləndirir?- Bu gün Federal Ehtiyat Sistemi deyir ki, mənim açıqlamalarımı təqribən orta məktəbin doqquzuncu sinfində oxuyan sosial qrup anlaya bilir, ondan aşağı anlaya bilmir. HəttaRiksbank kimi kommunikasiyaya çox önəm verən mərkəzi banklar deyir ki, bu da bəs deyil. İbtidai təhsil səviyyəsində olan uşaqlar belə o cümlələri sadə şəkildə anlamalıdır. Uşaqlar pul siyasətini niyə anlamalıdırlar, məgər ehtiyac varmı? Pul siyasəti özü mürəkkəb iqtisadi siyasətdir.

Məlum olur ki, aydın və intensiv kommunikasiya güclü etimadın mühüm şərtidir. O vaxtı pasiyent həkiminə etimad edər ki, həkimi ona məsələnin mahiyyətini düzgün başa salsın. Bu mənada güclü etimad ikinci həlqədir. Bəs, iqtisadi siyasətdə güclü etimad nəyə lazımdır? İqtisadi agentlər, müəssisələr, fiziki şəxslər, ev təsərrüfatları yüksək etimad göstərsələr iqtisadi siyasətə nə olar? Adekvat gözləntilər formalaşar. Etimad adekvat gözləntilər üçün amildir. Biz artıq bunu yaşamışıq, devalvasiyadan sonra iqtisadi agentlər hər an devalvasiya gözləntisindədirlər. Hətta qeyri-rəsmi informasiya da onları bazara sövq edirdi. Hamı az qala sabah xərcləyəcəyi manat kütləsini dollar kütləsinə dəyişmək arzusunda idi.

Bu bir daha onu göstərir ki, gözləntilər etimaddan asılıdır. Əgər iqtisadi siyasətin etimadı, pul siyasətinin etimadı yüksək olsa, Mərkəzi Bankın, digər siyasət orqanının bir bəyanatı yetər ki, gözləntilər rəvan olsun.

Bəs, gözləntilər nəyə lazımdır? Davranışların adekvatlığı üçün. Rasional davranışlar iqtisadi siyasətin ən son hədəfidir.

Rasional davranışlar məsələsində bir yanaşmaya görə, əslində bütün davranışlar özü-özlüyündə rasionaldır. Çünkiinsan rasional düstur əsasında hesablayır ki, mənim faydam nədir və bu faydaya doğru gedir. Amma mərkəzi bankçılıqda, iqtisadi siyasətdə belə bir yanaşma var ki, hər davranış rasional deyil. O davranış rasionaldır ki, bu iqtisadi siyasət institutlarının istədiyi kimi davranışdır.

Fikrimizi tamamlasaq, son nəticədə, sadalanan bu dörd mərhələ vəhdət şəklində olanda pul siyasəti, ümumilikdə iqtisadi siyasət real iqtisadiyyata əhəmiyyətli töhfə verə bilir.

Belə bir yanaşmanı da doğru hesab etmək olar ki, əgər iqtisadi siyasət kömək deyilsə, o, neytral deyil,artıq maneədir.

İqtisadi siyasətin, pul siyasətinin keyfiyyəti elə ilk növbədə dayanıqlıq və sabitlikdir ki, biz bu gün ölkə iqtisadiyyatında onu görürük. ABŞ dollarının məzənnəsi çox sərt rəqəmlə ifadə olunsa da, biz o sabitliyin faydasını görürük.

**Asif Həsənov:** Əslində inkişafın zirvəsi elə regionlardan başlayır. Mən məsələyə region baxımından yanaşmaq istəyirəm.

Hazırda çalışdığım kollektiv həm təhsil ocağıdır, həm də kənd təsərrüfatının aqrar sektoru ilə bağlıdır. Mən hesab edirəm ki, ümumiyyətlə, pul-kredit siyasətinin ən yüksək zirvəsisivil cəmiyyətə xasdır və bunun üçün birinci cəmiyyətimizin savadlılıq dərəcəsini artırmaq lazımdır.

Burada müxtəlif dövrlərdə israf iqtisadiyyatı ilə məşğul olan alimlərimiz əyləşiblər. Mən hesab edirəm ki, israf həddi yuxarı olan cəmiyyətdə normal, effektiv pul-kredit siyasətindən danışmağa dəyməz. Çünki, həqiqətən də, israf iqtisadiyyatı effektiv pul-kredit siyasətinin ziddinədir. Yerlərdə bu, çox müşahidə olunur.

Sonra, adicə kredit əməliyyatları zamanı cəmiyyətin təhsilinin aşağı olması pul-kredit siyasətinin həyata keçirilməsində bir maneə olaraq qalmaqdadır. Adicə regionlarda vətəndaşların kredit götürmə əməliyyatlarını mən gözümün önünə gətirirəm. İnanın ki, onlar müqavilələri imzalayırlar və oxumurlar, heç biznes planla da tanış deyillər. Savadlılıq çox aşağıdır. Ona görə də banklar orada bəlkə də xərcləri minimuma endirirlər ki, kağız və çap xərcləri aşağı olsun. Mən bəzi ölkələri araşdırdım, burada İsveçrə, İsrail, Sinqapur, Yeni Zelandiya, Kanada, Estoniya və s. ölkələr var. Məsələn, təhsil xərclərinin ümumi məhsulda payı, universitet tələbələrinin əhalinin ümumi strukturunda payı, elm xərclərinin payı respublikamızda cəmi 0,2 faizdir. ÜDM-də kənd təsərrüfatının payı hal-hazırda 6-7%-dir, bu, çox böyük rəqəmdir. Hətta adını çəkdiyim ölkələrdə, məsələn, İsveçrədə bu, 0,7 faizdir. Bu gün cənab Prezidentin də qeyd etdiyi kimi, Azərbaycanı dünyanın ən inkişaf etmiş ölkələri sıralarına çatdırmaq bizim hədəfimizdir, məqsədimizdir. Mən də hesab edirəm ki, bu hədəfə, məqsədə çatmaq üçün, Vətən iqtisadiyyatının sevgisini qazanmaq üçün birinci milli valyutaya sevgini artırmaq lazımdır. Mən hesab edirəm ki, biz nə qədər milli valyutamıza qarşı münasibətimizi doğmalaşdırmasaq, bu özünü pul-kredit siyasətində çatışmayan cəhətlərimizkimi büruzə verəcəkdir.

Mən kiçik və orta sahibkarlıqla bağlı bir məsələyə də toxunmaq istəyirəm. Burada da bank sektorunun



yanaşmalarında ciddi dəyişikliklərə, operativliyə, bir neçə instansiyadan asılılığı daha minimuma endirərək tez bir zamanda onların iqtisadi fəaliyyətinə təkan verə biləcək kredit resursları ilə təminatına böyük ehtiyac vardır. Yəni, bu gün banklarbildiyim qədərilə 200, bir az da daha çox əməliyyatlar yerinə yetirməlidirlər, lakin bu gün bankların əksəriyyəti valyutadəyişmə, valyutaköçürmə, kredit verməklə məşğuldurlar. Digər əməliyyatlar çox məhduddur. Əslində çeşid var, fəaliyyətlərində real görünmür, struktur çəkiləri bir-iki asılılıqdır. Sabah bu işlər olmasa onda bank hansı işlə məşğul olacaq?

Son müşahidələrimə əsasən, axır vaxtlar banklarda belə bir vəziyyət yaranıb - onlar əvvələ nisbətən, indi daha çox mərkəzə müraciət edirlər.

Mən milli valyuta məsələsinə qayıtmaq istəyirəm. Əslində milli valyuta ilə bağlı bir qədər də diqqətli olmalıyıq. Biz hətta öz valyutamızın xırda əskinazlarına münasibətimizi də diqqətdə saxlamalıyıq. Ödənişlərdə, cəmiyyətdə pulun istifadəsində milli valyutanın bir nömrəli valyuta olmasına rəğmən, həftəninmüəyyən günlərində ABŞ dollarına nisbətən Azərbaycan manatı ilə əlaqədar mübadilə məntəqələrində hədsiz problem yaranır.

Mən marketinq kafedrasında çalışıram, müşahidələr aparıram. Bəzən süni maneələr yaradırlar, bu da istər-istəməz cəmiyyətdə qiymət artımına səbəb olur. Həmin gün ən zəruri istehlak mallarındatəxminən 5-6 faiz civarında artım müşahidə olunur.

**Ziyad Səmədzadə:** Vacib məsələlərdən biri regionlarda əhalinin pul gəlirlərinin artmasını təmin edən imkanların reallaşmasıdır. Təəssüf ki, bu bu heç də asan başa gəlmir. Kiçik və orta sahibkarlığa supermarketlər şəbəkəsi, inhisarçılıq mane olur. Bu da rayonlarda kiçik biznesə mənfi təsir edir.

**Vüqar Vəliyev:** Pul kütləsi region üçün dövriyyədədir. Bir Bazar Store-nin Şəkiyə gəlməsi təxminən 10 milyon pulun ayda oradan çıxmasına bərabərdir.

**Ziyad Səmədzadə:** Ümumiyyətlə, kiçik, o qədər də inklişaf etməyən rayonlardamonitorinq aparılmasına ehtiyac var ki, orada nə qədər müəssisə var və bağlanan müəssisələrin səbəbləri, nədən ibarətdir?...

**Asif Həsənov:** Mən sonda bir cümlə ilə yekunlaşdırmaq istəyirəm. Hesab edirəm ki, bütün bu qeyd olunan məsələlər nəzərə alınmaqla, iqtisadi savadlılıq dərəcəsi artırılaraq cəmiyyətdə beynəlxalq konyukturun birbaşa və dolayı effektlərindən istifadə etməklə pul-kredit siyasətinin effektinidaha da artırmaq hər bir vətəndaşın borcudur.

**Məhiş Əhmədov:** Pul kütləsi olmalıdır ki, dövriyyə olsun. Dövriyyə olanda onun subyektləri istər-istəməz oradan mənfəət götürür və proses gedir.

**Rafiq Qarayev:** Mən də pul siyasəti və real sektor haqqında qısa məlumat vermək istərdim.Ümumiyyətlə, real sektor deyəndə, düşünürlər ki, pul əsas vəsaitdir. Bu vəsait olmasa, avadanlıqların alınması və s. mümkün deyil. Real sektorda vəsait olmasa, rəqabətqabiliyyətli məhsul istehsal etmək mümkün deyil. Məsələn, biz ölkə daxilində qurduğumuz şirkətə vəsait tapmayanda xaricə müraciət edirik. Azərbaycanda, məsələn, kreditlər 7 faiz verilir. Real bazarda kredit 16 faiz, 18 faiz, 24 faiz, 32 faiz, istehlak krediti 32, 38 faizdir. Yəni, bunun qarşısında bazarda kiçik sahibkarın istədiyi səviyyəyə çatımı olmur. Sovet vaxtında ölkəmizdə çox böyük inkişaf gedib. Bunundaha da müasirləşməsi üçün vəsait lazımdır. İndi Azərbaycan 90-cı illərə baxanda, çox böyük yol keçibdir. Vaxt var idi xaricdən Azərbaycana pul vermirdilər, Azərbaycana etibar yox idi. Bu gün Azərbaycan borc alan ölkədən borc verən ölkəyə çevrilib, bəzi ölkələrə kredit verir. Lakin bununla belə,banklarda olan prosedur qaydaları çətinləşir. Ümumiyyətlə, proseslər ildən-ilə sadələşməkdənsə, ağırlaşmaya doğru gedir. Real sektorda vəziyyət budur. Mən Avropa ölkələrində tikinti sektorunu araşdırdım, məsələn, orada ərazini alırsan, layihənin 20 faizin özün qoyursan, 80 faizini dövlət maliyyələşdirir, bütün sənədləri də tam paket təqdim edir və dövlət sənin arxanda durur, təki iş yeri açılsın, dövlətə vergi verilsin.

Bizdə, tikinti sektorundan söhbət gedəndə, ümumiyyətlə, banklar iş adamlarını içəri buraxmır. Niyə? Tikinti sektoru, demək olar ki, lokomotivdir. Tikinti sektorunun işsizliyin aşağı səviyyəyə salınmasında çox böyük rolu var. Azərbaycanda tikinti sektorundaistehsal olunan məhsulların 90 faizi yerli məhsuldur, armaturdan tutmuş beton məhsullarına qədər.

Ümumiyyətlə, işlə pul siyasətinin uyğunlaşması çox vacib bir məsələdir. Ucuz vəsaitimaneəsiz almaq nə qədər mümkündürsə, məhsulun maya dəyəri ucuz başa gələr. Ucuz başa gəlibsə, rəqabətədavamlı məhsul istehsal etmək olar.

Bu baxımdan da düşünürük ki, bankların pul siyasəti hər bir sahibkarın pul ala bilməsi üçün daha rahat olmalıdır. Çünki əks təqdirdə məcbursan qeyri sektorlara müraciət edəsən - lombardlara, yaxud şəxsi adamlara və s. Bu da dolayısı ilə kölgə iqtisadiyyatına köməkdir. Bizim də məqsədimiz odur ki, kölgəyə yox, günəşə doğru gələk. Amma günəş də elə olmalıdır ki, yanmayasan, yoxsa insan məcbur olur kölgəyə qaçır. Bu da dolayısı ilə pul siyasətinə gedib bağlanır. Onun üçün də düşünürəm ki, Mərkəzi Bank banklarla bağlı məsələlərə dəstək verilsə, daha yaxşı olar.

**Azər Ələsgərov:** Burada valyutanın ölkədən çıxması ilə bağlı fikir də səsləndi.

O vaxt valyuta bazarında vəziyyət gərgin idi, ideya ondan ibarət idi ki, ölkədə kapital axını saxlansın. Şirkətlər qabaqcadan ödəniş edirdilər, amma mal gəlmirdi, yəni bu yolla kapital ölkədən çıxırdı. Bunun qarşısının alınması üçün vaxt məhdudiyyəti qoydular. Əvvəl 180 gün idi, indi 270 gündür ki, onun qarşısı alınsın.

Azərbaycanda pul siyasətinin effektivliyini artırmaq üçün nələr etmək lazımdır? Mən biraz da bu haqda danışmaq istərdim. Misal üçün, makroiqtisadi koordinasiyanın gücləndirilməsi çox vacibdir. Xüsusən pul siyasəti ilə fiskal siyasətin əlaqələndirilməsi. Həqiqətən də inflyasiyanın volativliyinin əsas səbəbi transfertin volativliyi olub. Neft bumu illərində ildən-ilə transfertlər artdı, hətta 14 milyard dollara çatdı. Sonra, neftin qiyməti aşağı düşəndə transfertlər üç dəfə azaldıldı və bu, valyuta bazarında şok yaratdı. Bu da olmalı idi. Çünki büdcə xərcləri, qeyri-neft büdcə kəsiri artdıqca, qeyri-neft cari əməliyyatlar hesabı da artırdı. Biz buna əkiz kəsirlər deyirik və o kəsirin maliyyələşməsi birdən-birə dayananda, təbii ki, valyuta bazarında şok baş verir. Xoş xəbər bundan ibarətdir ki, artıqkeçən il fiskal qayda qəbul olundu və 2019-cu ilin dövlət büdcəsi artıq fiskal qayda əsasında tərtib olunub. Fiskal qayda nədir? Bu, mürəkkəb bir formuladır. Xərclənə bilən neft gəlirlərinin maksimal həddi müəyyən olunur. Fiskal qayda ümumilikdə ona gətirib çıxarmalıdır ki, o illər üzrə transfert artıq sabit olmalıdır. Yəni, illər üzrə transfertlərdə kəskin artım və yaxud da kəskin eniş olmamalıdır və bu da şərait yaratmalıdır ki, valyuta bazarında şok olmasın. Çünki bu artıqlığın özü də problemdir. Mərkəzi Bank şərait yaratmalıdır ki, manat kəskin möhkəmlənsin.

Sonra maliyyə dərinliyi məsələsinə toxunmaq istəyirəm. Maliyyə dərinliyi çox aşağıdır, bu da pul siyasətinin effektivliyinə mənfi təsir göstərir. Çünki Mərkəzi Bank pul siyasətini maliyyə sektoru vasitəsilə yürüdür. Maliyyə sektorumuzuniqtisadiyyatda payı azdırsa, deməli, məzmun, tələb maliyyə sektorundan, kreditlərdən asılı deyil. Məsələn, İngiltərə Mərkəzi Bankı uçot dərəcəsini qaldırır, iki ildən sonra inflyasiya bir qədər aşağı düşür, burada transmissiya var. Nəyə görə? Çünki bank kreditlərinin ÜDM-də xüsusi çəkisi 100 faizdir, məcmu tələb əsasən bank kreditlərindən asılıdır və bank kreditlərinin faizi ilə Mərkəzi Bankın faizi arasında proqnozlaşdırıla bilən bir əlavə var. Orada aktiv banklararası pul bazarı var. Bizdə isə aktiv banklararası pul bazarı yoxdur. Bizim banklar arasında inamsızlıq var, bir-birinə kredit vermirlər. Azərbaycanın bu dəqiqə liboru yoxdur. Biz də çalışırıq ki, libor olsun və digər faizlər də ondan asılı olaraq dəyişsin.

Pul kütləsinin ÜDM-də xüsusi çəkisi elə faktiki olaraq maliyyə dərinliyi göstəricisidir. Yəni, maliyyə dərinliyi aşağıdırsa, o da mütləq aşağı olacaq. Maliyyə dərinliyi artanda o da artacaq. Faiz dərəcələri də bundan asılıdır. Bu gün faiz dərəcələrinin yüksək olmasının səbəbələrindən biri də bankların qeyri-faiz gəlirlərinin, demək olar ki, yox dərəcəsində olması ilə bağlıdır. Nağdsız ödənişlər o qədər aşağı səviyyədədir ki, banklar ancaq faiz gəlirləri hesabına gəlir əldə edirlər və ona görə də kreditlərə yüksək faizlər müəyyənləşdirirlər. Çıxış yolu nağdsız ödənişlərin genişləndirilməsidir. Bununla bağlı keçən ilin sentyabrında cənab Prezidentin fərmanı ilə proqram qəbul olunub. O proqramların həyata keçirilməsi imkan verməlidir ki, monetarizasiya göstəricisi, maliyyə dərinliyi artsın. Bu, təbii ki, pul siyasətinin effektivliyinə də təsir göstərəcək.

Çox vacib məsələlərdən biri dəiqtisadi maariflənmədir. Təəssüf ki, iqtisadiyyatla bağlı yazan jurnalistlərin maariflənmə səviyyəsi bəzən lazımi səviyyədə olmurvə ona görə də bizim bu mesajları düzgün ötürmürlər. Həddindən artıq təhrif olunmuş formada, daha çox sensasiya yaradan məlumatlar yaymağa çalışırlar.

Faizlərin transmissiyası, təbii ki, bizi də qane etmir. Uzunmüddətli dövrə baxsaq, görərik ki, Mərkəzi Bankın uçot dərəcəsi ilə digər faizlər eyni istiqamətdə dəyişir. İstiqamət eynidir. Amma o faizlərin strukturuna da baxmaq lazımdır. Fiziki şəxslərin kreditlərinə görə faizlər yüksəkdir. Böyük kənarlaşma fiziki şəxslərə görə kreditlərin faizlərindədir və bu da daha çox risklərlə bağlıdır.

İqtisadiyyatda pul bu dəqiqə lazım olduğundan çoxdur, yoxsa azdır, bu, çox mübahisəli bir məsələdir. Amma biz düşünürük ki, bu dəqiqə iqtisadi artımın zəif olmasının səbəbi heç də pulun az olmağı ilə əlaqədar deyil. Yəni, biz bank göstəricilərinə nəzər yetirsək, görərik ki, çox böyük likvidlik var bank sistemində.

Maliyyə Bazarlarına Nəzarət Palatasının məlumatına görə, bankların likvid aktivlərinin həcmi 7 milyard manatdan çoxdur. Bu pullar haradadır? Bu pullar Mərkəzi Bankdakı müxbir hesablardadır. Amma iqtisadiyyata xeyir gətirmir. Niyə? Bu gün biz yalnız nağd pulun ÜDM-də xüsusi çəkisinə baxsaq, görərik ki, Azərbaycanda digər ölkələrdən çoxdur. Pul kütləsi son illər artır. Pul kütləsi 2017-ci ildə də, 2018-ci ildə də artıb və bu il yəqin ki, daha yüksək templə artacaq.

**Ziyad Səmədzadə:** Mərkəzi Bankın apardığı tədqiqatlar çox sanballı tədqiqatlardır. Mən o mövqedə də qalıram və hər dəfə öz çıxışımda da deyirəm ki, biz Mərkəzi Bankın strateji rolunu həmişə qorumalıyıq.

Bizim zəif inkişaf etmiş regionlarımız var. O regionların göstəricilərini qeyd etmək istəmirəm, çünki çox aşağıdır. O yerlərdə əhalinin gəlirləri də azdır. həmin rayonlarda ünvanlı layihələr həyata keçirilsə, əhalinin vəziyyəti yaxşılaşacaq, onda inflyasiya artmayacaq. Məsələn, Ağdamda iri müəssisələr yoxdur, istehsal müəssisələri yox dərəcəsindədir. Orada iki, üç istehsal müəssisəsi yaratmaq inflyasiyaya təsir edəcək. Yaxud Yardımlıda, Lerikdə və digər bölgələrdə. Bu məsələlər Mərkəzi Bankdan asılı deyil. Haradakı əmək ehtiyatı, potensial, su, qaz var, orada müəssisə yaratmaq lazımdır.

# Pul bazası 10 milyard 298,8 milyon manat təşkil edib

Azərbaycanda pul bazası noyabrın 1-nə 10 milyard 298,8 milyon manat təşkil edib.
Bu rəqəm oktyabrın 1-i ilə müqayisədə 81,5 milyon manat, ilin əvvəli ilə müqayisədə 753,1 milyon manat artıb.
2018-ci ilin sonuna pul bazası 9 milyard 545.7 milyon manat olub.



# Mərkəzi Bankın valyuta ehtiyatları artıb



Azərbaycan Mərkəzi Bankının (AMB) sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi açıqlanıb.
AMB-nın valyuta ehtiyatları noyabrın 1-nə 6 milyard 144,7 milyon ABŞ dolları olub. Bu göstərici oktyabrın 1-i ilə müqayisədə 110,6 milyon dollar, ilin əvvəli ilə müqayisədə 519 milyon dollar çoxdur.
2018-ci ilin sonuna AMB-nin valyuta ehtiyatları 5 milyard 625,7 milyon təşkil edib.

# ABA Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq edəcək

Azərbaycan Banklar Assosiasiyası (ABA) ilə Beynəlxalq Maliyyə Korporasiyası (IFC) arasında əməkdaşlığa dair saziş imzalanıb.
Sazişi ABA-nın prezidenti Zakir Nuriyev və IFC-nin Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri Aliyə Əzimova imzalayıblar. Sazişə əsasən hər iki qurum elektron və maliyyə xidmətləri sahəsində əməkdaşlıq edəcək.
Qeyd edək ki, imzalanma noyabrın 6-da Bakıda keçirilən IV Beynəlxalq Bankçılıq Forumu çərçivəsində baş tutub.




# Bakıda IV Bankçılıq Forumu keçirilir




Noyabrın 6-da Bakıda "Nağdsız iqtisadiyyat: dayanıqlı bankçılığa doğru" mövzusunda IV Beynəlxalq Bankçılıq Forumu işinə başlayıb.
Forumun məqsədi iqtisadiyyatın nağdsızlaşdırılması ilə bağlı təşəbbüslərin və qarşıdakı çağırışların, rəqəmsallaşma, maliyyə texnologiyalarına dair mövcud vəziyyət, yeni və gələcək trendlərin, müasir bank məhsullarının, komplayns sahəsindəki yeniliklər və risklərin, həmçinin sadalananların mövcud hüquqi çərçivəyə uyğunluğu və adaptasiyası imkanlarının, bu proseslərin bankların maliyyə dayanıqlığının daha da gücləndirilməsinə təsiri məsələlərinin, eləcə də digər əlaqədar mövzuların müzakirə edildiyi platforma olmaqdır.
Forumda "Nağdsız iqtisadiyyat: nailiyyətlər və çağırışlar", "Bankçılıq - rəqəmsallaşmaya doğru", "Bankçılığın transformasiyasının yeni tərəfləri", "Yeni ödəniş dünyası" mövzularında panel iclaslarda müzakirələr aparılıb.
Qeyd edək ki, bankçılıq forumu Bakıda hər il təşkil edilən beynəlxalq tədbirlərdən biri olmaqla regionun ən nüfuzlu maliyyə və bankçılıq tədbiridir.

# Bankdan növbəti bağışlama

"AtaBank" ASC 26-cı ildönümü ilə bağlı Qarabağ uğrunda gedən Aprel döyüşlərində yaralanmış hərbçimizin kredit borcunu bağışlayıb.
Ruslan Zahid oğlu Fərzəlizadə Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunması uğrunda, düşmən mövqelərinin məhv edilməsində, həmçinin Ağdam ərazisində N saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin kəşfiyyatçısı olaraq iştirak edib və bu zaman sol gözündən və əlindən yaralanıb.




Hərbçimiz "AtaBank"ın "Mərkəz" filialına dəvət edilib və idarə heyəti sədrinin müavini Kamran Orucəliyev və Biznesin inkişafı departamentinin direktoru Oruc İbrahimov ilə görüşüb. Görüş zamanı "AtaBank" ASC-nin idarə heyəti sədrinin müavini K.Orucəliyev deyib: "Torpaqlarımız uğrunda döyüşən, Vətən keşiyində dayanan əsgər və hərbçilərimiz hər zaman dövlətimizin diqqət mərkəzindədir. Lakin ölkənin özəl sektoru da, ələlxüsus iri şirkətlər və bank kimi maliyyə institutları da müstəqilliyimiz uğrunda canlarını fəda etməyə hazır oğullarımızı və onların doğmalarını unutmamalıdır. Bank olaraq Vətənin çətin günlərində düşmənə sinə gərənlərin sosial durumunu nəzərə alıb bacardığımız yardımı əsirgəməməliyik".
Xatırladaq ki, "AtaBank" ASC bundan öncə də Azərbaycan Respublikası Silahlı Qüvvələr Günü ilə əlaqədar olaraq Qarabağ uğrunda gedən döyüşlərdə yaralanmış hərbçimizin kredit borcunu bağışlayıb.

# Şanxayda Azərbaycanın da iştirak etdiyi II Çin Beynəlxalq İdxal Sərgisi işə başlayıb

Çinin maliyyə və biznes mərkəzi hesab olunan Şanxay şəhərində II Çin Beynəlxalq İdxal Sərgisi işə başlayıb.
155 ölkə və regionun, 26 beynəlxalq təşkilatın qatıldığı sərgi idxal məhsullarının Çin bazarına girişini təşviq etmək və bu işə dəstək məqsədi daşıyır. Sərgidə 62 ölkənin milli pavilyonu fəaliyyət göstərir. Ümumi ekspozisiya sahəsi 360 min kvadratmetr olan sərgidə 3893 şirkət iştirak edir.
Azərbaycan bu il sərgidə milli pavilyonla təmsil olunur. Qida məhsulları, o cümlədən şərab və spirtli içkilər, qənnadı məmulatları, meyvə şirələri və kompot, quru meyvələr, mineral sular, konservlər istehsal edən 26 şirkətimiz məhsullarını yerli idxalçılara təqdim edir. Azərbaycan məhsulları həm sərginin milli pavilyonunda, həm də biznes bölməsində nümayiş olunur.




Bir neçə ölkənin dövlət və hökumət başçısının, yüksək vəzifəli rəsmilərin iştirak etdiyi sərginin açılış mərasimində çıxış edən Çin Xalq Respublikasının Sədri Si Cinpin Şanxay sərgisinin hökumətin daxili bazarın idxal məhsullarına daha açıq olmasını təmin etmək istiqamətindəki səylərinin bir hissəsi olduğunu deyib.
Sərgidə Azərbaycandan Baş Nazirin müavini, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərliyi ilə nümayəndə heyəti də iştirak edir. İkitərəfli görüşlərdə Azərbaycan ilə Çin arasında iqtisadi-ticari əlaqələrin inkişaf məsələləri müzakirə olunacaq.

# ASCO-da "Bonus Siyasəti" ilə bağlı tədbir keçirilib

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də (ASCO) "Bonus Siyasəti" ilə bağlı tədbir keçirilib.
ASCO-dan bildirilib ki, Gəmiçiliyin əməkdaşlarının iştirakı ilə baş tutan tədbirdə şirkət sədrinin kommersiya, strateji inkişaf və innovasiyalar üzrə müavini Fərhad Quliyev rəhbərliyin daim diqqətdə saxladığı korporativ idarəetmə ilə bağlı davamlı işlər görüldüyünü, müxtəlif layihələr gerçəkləşdirildiyini deyib.
Qeyd olunub ki, mükafatlandırma korporativ idarəetmə sisteminin vacib elementlərindən biridir. Bu prinsipi əsas götürən ASCO 2017-ci ildən etibarən "Bonus Siyasəti"ni uğurla tətbiq edir.
F.Quliyevin sözlərinə görə, tətbiq olunan "Bonus Siyasəti" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 sentyabr tarixli "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyun tarixli Qərarı ilə təsdiq edilmiş "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydaları"na uyğunlaşdırılıb. Tədbir zamanı "Bonus Siyasəti"nin tətbiqi sahəsi və siyasətə olunan yeniliklər barədə məlumat verilib.
Eyni zamanda, bildirilib ki, ASCO-nun "Bonus Siyasət"i dünyada tanınmış müstəqil audit şirkəti olan "Deloitte & Touche" tərəfindən nəzərdən keçirilib və müvafiq təklifləri nəzərə alınıb.



# В 2020 году 43,9 процента бюджетных доходов придется на долю ненефтяного сектора



Одним из главных факторов, характеризующих государственный бюджет 2020 года, является значительное повышение расходов социальной направленности. Президент Ильхам Алиев осуществляет большую работу по улучшению социального обеспечения населения Азербайджана. Эта работа будет продолжена и в последующие годы.

Об этом 6 ноября сказал министр финансов Самир Шарифов на заседании комитетов Милли Меджлиса во время обсуждения законопроекта о государственном бюджете. Министр отметил, что в 2020 году 43,9 процента доходов государственного бюджета придется на долю ненефтяного сектора, а 56,1 процента – на прибыль от нефти.

# В следующем году ожидается значительный рост в ненефтяном секторе

В следующем году ожидается значительный рост как в нефтегазовой промышленности, так и в ненефтяном секторе. В результате осуществляемых комплексных мер в 2020 году в ненефтяной сфере прогнозируется рост на 8,8 процента.

Об этом 5 ноября сказал министр экономики Микаил Джаббаров в ходе обсуждения в Милли Меджлисе законопроекта о государственном бюджете на 2020 год.



Министр отметил, что в следующем году для реализации отмеченных прогнозов необходимо продолжить меры по улучшению бизнес-среды, приостановлению проверок в сфере предпринимательства и др. В результате осуществляемой работы с каждым годом в ненефтяной сфере наблюдается рост. Ожидается, что эта тенденция будет продолжена и в последующие годы.

# Устойчивость курса маната будет находиться в центре внимания и в 2020 году

В 2020 году главной задачей поставлено обеспечение макроэкономической стабильности.

Об этом сказал 5 ноября в Милли Меджлисе председатель Центрального банка Азербайджана Эльман Рустамов в ходе обсуждения законопроекта о государственном бюджете 2020 года.



Эльман Рустамов отметил, что и в следующем году стабильность цен и устойчивость курса маната будет в центре внимания.

Уже третий год как стабильно соотношение маната к иностранной валюте.

# Достигнуты важные успехи в борьбе с теневой экономикой

В нашей стране достигнуты важные успехи в борьбе с теневой экономикой. В результате этого увеличились поступления в государственный бюджет. В следующем году этот вопрос также будет находиться в центре внимания таможенных органов.

Об этом сказал 5 ноября в Милли Меджлисе председатель Государственного таможенного комитета Сафар Мехдиев в ходе обсуждения законопроекта о государственном бюджете 2020 года.

Сафар Мехдиев отметил, что Государственный таможенный комитет прогнозирует рост объема поступлений в бюджет и в следующем году.



# Госбюджет 2020 года является крупнейшим прогнозируемым бюджетом Азербайджана

Об этом сказал 5 ноября в Милли Меджлисе председатель Счетной палаты Вюгар Гюльмамедов в ходе обсуждения законопроекта о государственном бюджете 2020 года.



Вюгар Гюльмамедов довел до внимания значительное увеличение в текущем году ненефтяных доходов государственного бюджета.

# В Москве презентованы экономические возможности Азербайджана



В Москве при поддержке посольства Италии в России для итальянских компаний был проведен форум, в рамках которого состоялась презентация экономических возможностей Азербайджана, Казахстана, Туркменистана и Узбекистана. В форуме приняли участие более 200 итальянских компаний.

На мероприятии выступил посол Азербайджана в России Полад Бюльбюльоглу. Он особо отметил, что Россия и Италия являются важными экономическими партнерами Азербайджана. Объем торговли между двумя странами за последние 20 лет позволил Италии стать основным торговым партнером Азербайджана. Подчеркнув успешное развитие энергетического сотрудничества между двумя странами, дипломат предложил бизнесменам реализовывать новые совместные проекты и расширять объем торговли в разных сферах.

Как подчеркнул Полад Бюльбюльоглу, развитие туризма имеет важное значение для экономики Азербайджана. Он рассказал о туристическом потенциале нашей страны подчеркнув, что в последние годы в Азербайджане построены горнолыжные курорты, не уступающие лучшим европейским аналогам. «Азербайджанские авиалинии» осуществляют прямые рейсы между Баку и Миланом и предложил итальянским компаниям открыть прямые рейсы между Римом и Баку. Посол Полад Бюльбюльоглу предложил организовать ознакомительные поездки итальянских бизнесменов в Азербайджан для более глубокого изучения возможностей для инвестирования, отдыха и туризма.

На мероприятии выступили посол Италии в России Паскуалле Тарраччано, посол Казахстана по особым поручениям Олжас Исабеков и советник по экономическим вопросам посольства Узбекистана в России Шохрух Гуламов.

# Азербайджанская продукция представлена на II Китайской выставке

В городе Шанхай Китайской Народной Республики начала работу II Международная импортная выставка.

Выставка, в которой принимают участие 155 стран и регионов, 26 международных организаций, проводится с целью поощрения и поддержки продвижения импортной продукции на китайском рынке. На выставке действуют национальные павильоны 62 стран.




В выставке, общая экспозиционная площадь которой составляет 360 тыс. квадратных метров, участвуют 3 893 компании.

В выставке принимает участие азербайджанская делегация во главе с заместителем премьер-министра, сопредседателем азербайджано-китайской межправительственной комиссии по торгово-экономическому сотрудничеству Шахином Мустафаевым.

Азербайджан в этом году представлен на выставке двумя национальными павильонами – как в разделе стран, так и в разделе бизнеса. В азербайджанском павильоне площадью 136 квадратных метров в разделе стран представлены материалы, издания об экономическом развитии, благоприятной бизнес- и инвестиционной среде, транспортно-транзитных возможностях, туристическом потенциале нашей страны. Кроме того, для зрителей создана возможность для просмотра на мониторах видеороликов об Азербайджане.

В азербайджанском павильоне площадью 300 квадратных метров в разделе бизнеса 26 наших компаний, производящих конкурентоспособные и ориентированные на экспорт продукты под брендом Made in Azerbaijan, в том числе вина и алкогольные напитки, кондитерские изделия, фруктовые соки и компоты, сухофрукты, минеральные воды, консервы, представляют свою продукцию местным импортерам. Азербайджанские компании провели переговоры относительно экспорта в Китай производимой продукции, достигнуты предварительные договоренности.

# В декабре в Баку пройдет IV форум «Время инноваций 2019»

С 4 по 7 декабря в Баку состоится церемония вручения ежегодной IX премии в области инноваций «Время инноваций» — независимой награды, вручаемой за лучшие проекты и практики по внедрению, разработке и развитию инноваций в разных сферах.

5-6 декабря в Баку в рамках премии «Время инноваций» пройдет форум, посвященный международному сотрудничеству в области инноваций. Участники форума представят собственные кейсы, обсудят последние тренды и поделятся опытом внедрения инноваций в всех аспектах бизнеса. В работе




международного форума примут участие представители Азербайджана, России, Казахстана и др.

В числе спикеров форума представители ПАО «Сбербанк», ПАО «Аэрофлот», АО «Зарубежнефть», АО «Росэлектроника», AzerTelecom, «KPMG Казахстан», «Норильского никеля», Yota, Открытия Факторинг, АО «Макфа», компаний PAROC, «Капитал Лайф Страхование Жизни», «ТЕРЕМЪ», «Аэроэкспресс» и многих других.

# Türkiyədə tullantılardan elektrik enerjisi istehsalına başlanılıb



Türkiyənin Van şəhərində tikintisi başa çatan Qatı Tullantıların İnteqrasiyası Mərkəzində bioqazdan elektrik enerjisi istehsalına başlanılıb.

Tullantıların yığıldığı sahədə inşa edilən mərkəz enerji istehsalı ilə yanaşı, şəhərin ən böyük problemlərindən olan tullantıların saxlanılması və yenidən emalı baxımından da vacibdir. Bundan əlavə, layihə çərçivəsində Van gölünün təmizlənməsi də nəzərdə tutulur.

Van şəhərinin Tuşba rayonundakı mərkəzin tikintisi 140 milyon türk lirəsinə başa gəlib. İlkin mərhələdə burada saatda 8 meqavat elektrik enerjisinin istehsalı nəzərdə tutulur ki, bu da təxminən 30 min ailənin elektrik enerjisi ehtiyacını qarşılayacaq. Qeyd edək ki, Van Türkiyənin böyük şəhərləri arasında tullantıların çoxlu miqdarda yığıldığı yeganə şəhərdir. Bu da bir çox sahədə olduğu kimi, şəhərdə turizmin inkişafına da mənfi təsir göstərir.

# ABŞ və Çin bəzi rüsumları aradan qaldıra bilər

Vaşinqton və Pekin ticarət sahəsində mübahisəli məsələlərin həlli üçün qarşılıqlı şəkildə tətbiq edilən bəzi rüsumların aradan qaldırması imkanlarını nəzərdən keçirir.

AZƏRTAC "The Wall Street Journal" nəşrinə istinadla xəbər verir ki, Amerika və Çin hakimiyyəti bu addımın məsləhətləşmələrin uğurlu keçməsinə şərait yaradacağını güman



edirlər. Tərəflər ticarət sazişinin hazırlanması üzrə birinci mərhələ barədə prinsipial razılığa gəliblər.

Saziş çərçivəsində Vaşinqton Çin məhsullarına dekabr ayında planlaşdırılan yeni rüsumlardan imtina edə bilər. Həmçinin, hər iki dövlət indiyə qədər tətbiq edilən bəzi rüsumların aradan qaldırılması imkanlarını da müzakirə edir.

## İş gününü azaltdılar, məhsuldarlıq 40% artdı

Texnologiya nəhəngi "Microsoft" Yaponiyadakı filialının istirahət gününü üç günə qədər artırdıqdan sonra məhsuldarlıq təxminən 40 faiz artıb.

Belə ki, bir ay davam edən sınaqda şirkətin 2300 işçisinin istirahət gününə əlavə olaraq cümə günləri də daxil edilib.

Nəticədə, işçilərin 25 faizinin daha az icazə istədiyi, elektrik enerjisindən istifadənin 23 faiz daha az olduğu, printerlərin isə 59 faiz az istifadə edildiyi müəyyən olunub. Qeyd edək ki, Yaponiya dünyada iş saatlarının ən çox olduğu və buna görə ən çox ölüm hallarının yaşandığı ölkədir.




# "ABŞ-da durğunluq ehtimalı aşağıdır"



"Goldman Sachs Group"un İcraçı direktoru (CEO) David Solomon ABŞ-da "güclü istehlakçı xərcləri" səbəbilə yaxın müddətdə durğunluq ehtimalının aşağı olduğunu söyləyib.

İqtisadiyyat.az xəbər verir ki, "Bloomberg International"a danışan Solomon, "Seçki dövrünə qədər bir durğunluq ehtimalının aşağı olduğunu düşünürəm, bəlkə 25% ehtimal... 9 ay əvvəl sizə bu ehtimalın daha aşağı olduğunu, 15% ətrafında olduğunu söyləyərdim. Qeyri-müəyyənliklər durğunluq riskini bir az artırıb. Ancaq iqtisadi məlumatlar və şirkətlərin maliyyə göstəriciləri yaxşı gəlir, ABŞ-lı istehlakçılar da hələ çox güclüdürlər", - deyib.

Solomon sənaye və emalat sektorundakı pis gedişata da toxunaraq, "Ancaq ümumən baxıldığında yaxın müddətdə durğunluq ehtimalı aşağıdır", - deyib.

Solomon iqtisadiyyatın ümumi güclü gedişatı səbəbilə Fed-in daha çox faiz endirməsinə gərək olmadığını qeyd edib və "iqtisadi məlumatlara baxınca faizlərin daha da düşməsi çaşdırıcı olar" şərhini edib.

ABŞ-Çin ticarət riskinə toxunan CEO, burada da razılaşma işarələri olduğunu söyləyib.

# 20 ildən sonra qlobal enerji tələbatı necə olacaq?




Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Ümumdünya Neft Outlook Hesabatına görə, 2040-cı ilə qədər qlobal enerji tələbatı hər il orta hesabla 1 faiz artaraq gündəlik 357,5 milyon barel neft ekvivalenti təşkil edəcək. 2040-cı ildə qalıq yanacaqlarının qlobal enerjidəki payı 75 faizi keçəcək. Qalıq yanacaqlar içində neft 28,2 faizlə birinci olacaq, onu 25,2 faizlə təbii qaz, 21,5 faizlə kömür izləyəcək. Enerji tələbatında bərpa olunan enerji mənbələrinin payı 2040-cı ildək 19 faiz, nüvə enerjisinin payı isə 6,1 faiz olacaq.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) bölgəsinin enerji tələbatı hesabat dövründə azalaraq 3,1 milyon barrel neft ekvivalentinə düşəcək, OECD üzv olmayan ölkələrdə isə gündəlik tələbat 74,8 milyon barrel neft ekvivalentinədək artacaq. Qlobal neft tələbatı 2040-cı ildə gündəlik 110,6 milyon barrel olacaq.

OECD bölgəsindəki tələbat 38,3 milyon barrel, OECD üzv olmayan ölkələrin neftə olan tələbatı isə gündəlik 72,3 milyon barrelə çatacaq.

# Belə də olur...

• İsveçrədə yeni doğulan uşağa ad qoymaq üçün vergi xidmətinə məlumat verilməli və xidmətdən xüsusi icazə alınmalıdır.

• I Henrix zamanında – XI əsrdə İngiltərədə "qorxaqlıq vergisi" tutulurdu. Əslində isə bu, dövlətin xəzinəsinə müəyyən məbləğ ödəməklə müharibədən yayınmağa hüquqi don geyindirmək idi.

• 2005-ci ildə ABŞ-ın Tennesi ştatında hər narkotik maddə satışı üçün anonim vergi ödəmək barədə qərar çıxarılmışdır.

• ABŞ-ın Kolorado ştatında ərzaq məhsulu üçün zəruri olmayan qablaşdırmaya görə vergi tutulur. Bu, o deməkdir ki, əlüstü yemək restoranında vergi ödəyicisi qəhvə içəsi olsa, plastik fincan üçün deyil, fincanın qapağı üçün vergi ödəməlidir.

• 2002-ci ilə qədər Almaniyada rüşvətə görə vergi tutulurdu.

• ABŞ-ın Konnektukut ştatında özünüz üçün uşaq bezi almış olsanız, vergidən azadsınız, ancaq həmin bezi öz uşağınız üçün alsanız, vergi ödəməli olacaqsınız. Sadəcə, bezin kimin üçün alındığının müəyyənləşdirilməsi çətindir.




# "Çirkli pulların yuyulmasına qarşı xüsusi tənzimləyici yaradılacaq"



Avropa İttifaqı təşkilata üzv ölkələrin banklarının mərkəzində olduğu və mövcud tənzimləyicilər tərəfindən vaxtında aşkar edilməyən bir sıra qalmaqallardan sonra çirkli pulların yuyulması ilə məşğul olacaq xüsusi tənzimləyicinin yaradılması imkanlarını nəzərdən keçirir. Bu barədə "Financial Times" qəzeti dekabr ayında Aİ ölkələrinin maliyyə nazirləri tərəfindən müzakirə ediləcək sənəd layihəsinə istinadən yazıb.

Onlar Avropa Komissiyasına çirkli pulların yuyulmasının qarşısını alacaq yeni müstəqil qurumun işi, eləcə də müştərilərin yoxlanılması ilə bağlı tövsiyələr hazırlamağı tapşırmaq niyyətindədirlər.

Qeyd edək ki, son zamanlarda Latviyanın ABLV, Danimarkanın "Danske Bank", İsveçin "Swedbank" bankında və digər banklarda çirkli pulların yuyulması ilə bağlı bir sıra genişmiqyaslı qalmaqallar yaşanıb. Yeni tənzimləyicinin yaradılması ideyası Fransa və Hollandiya tərəfindən dəstəklənir. Onların fikrincə, sıfırdan yaradılacaq yeni qurum ən yaxşı həll yolu ola bilər. Hərçənd, mövcud Avropa bank administrasiyasının gücləndirilməsi variantı da nəzərdən keçirilir.

# 90 milyon avro vergi ödəyən şirkət

Çinin "Huawei" şirkəti 2018-ci ildə Portuqaliyanın ümumi daxili məhsuluna (ÜDM) 50 milyon avro, bütün Avropa üzrə ÜDM-ə isə 12,8 milyard avro məbləğində təsir göstərib. Britaniyanın "Oxford Economics" konsaltinq şirkətinin məlumatına görə, "Huawei" Portuqaliyada 90 milyon avro məbləğində vergi ödəyib və ölkədə 900 iş yeri yaradıb.

"Oxford Economics"in məlumatı Parisdə keçirilən "Huawei" İnnovasiyalar Günündə təqdim edilib. Hesabata görə, Portuqaliya Çin şirkətinin Avropada iqtisadi təsir göstərdiyi əsas ölkələrdən deyil. Bu siyahıda Macarıstan liderlik edir. Macarıstanda "Huawei"dən ÜDM artımı 0,39 faiz təşkil




edib. Həmin göstərici İsveçrədə 0,16 faiz, Böyük Britaniyada 0,14 faiz, Rumıniyada 0,13 faiz, Finlandiyada 0,12 faiz, Niderland, İsveç və Litvada 0,10 faiz, Almaniya və Bolqarıstanda 0,09 faiz təşkil edib.

"Huawei"in Çinin hüdudlarından kənarda ən iri bazarı Avropadır. Şirkət 5G mobil internet texnologiyasının inkişafı sahəsində liderlərdən biridir və onun 50 lisenziyasından 28-i Avropa operatorları üçün işləyir.